# İNKLÜZİV SİNİFLƏRDƏ TƏLİMİN TƏŞKİLİ

*Oxu materialı*

**Bakı – 2018**

## Mövzu 1. İNKLÜZİV TƏHSİL NƏDİR?

### 1. “İnklüziya” anlayışı və inklüziv təhsil

> Təhsil – hər bir insanın böyük əhəmiyyətə və potensiala malik haqqıdır. Azadlıq, demokratiya və dayanıqlı inkişaf prinsipləri təhsil əsasında qurulur... “Hamı üçün təhsil”dən daha vacib digər bir vəzifə yoxdur.
>
> Kofi Annan

Bu gün təhsil sahəsində dövriyyədə olan anlayışlardan biri “inklüziya” terminidir.

İnklüziya (“inclusion – daxiletmə”) – bütün vətəndaşların, ilk növbədə, əlilliyi olan bütün insanların cəmiyyətdə iştirak səviyyəsinin artırılması prosesidir.

İnklüziv təhsil isə ümumi təhsilin elə bir inkişaf mərhələsidir ki, burada hamının, ilk növbədə, sağlamlıq imkanları məhdud (bundan sonra **SİM** yazılacaq) şəxslərin təhsilə ehtiyacı təmin edilir.

Söhbət bütün vətəndaşların, o cümlədən müəyyən səbəblərdən fiziki və əqli inkişafında çətinlikləri olan şəxslərin ictimai həyatda aktiv iştiraka qatılmağından gedir. Təhsil sahəsi istisnasız olaraq bütün uşaqların və böyüklərin akademik və ictimai həyatda bərabərhüquqlu iştirakını təmin etməldir. “İnklüziv təhsil” anlayışının geniş çərçivədə izah edilməsinə ehtiyac o səbəbdən yaranmışdır ki, təhsil işçiləri, idarəedici və digər orqanlar, təhsil siyasətini hazırlayan şəxslər qarşılıqlı əməkdaşlıq və dialoq üçün ümumi diskursiv sahəyə (diskursiv sahə intellektual və sosial sahələrin qarışığıdır ki, burada sosial əlaqələr müəyyən bir təcrübəyə çevrilir) malik olsunlar.

Beynəlxalq ictimaiyyət “inklüziya” terminini ictimai həyata aktiv qatılma kimi izah edir. Təhsil mühitinə inklüziv yanaşma zamanı ümumilikdə məktəbin şagirdləri və onların valideynləri sağlamlıq imkanları məhdud uşaqları cəmiyyətin üzvü kimi qəbul etməyə başlayırlar. SİM insanların baxışları da ətraf mühit üçün əhəmiyyət kəsb etməyə başlayır, hər şeydən öncə isə onlar artıq korreksiyaedici xüsusi məktəblərdə olduğu kimi, evdən təcrid olunaraq yaşamırlar. İnklüziya həm də insan hüquqlarının qorunması mexanizminin elementi, hamının təhsilinin təmin olunması prosesi və hamı üçün

məktəbin təşkili kimi nəzərdən keçirilir. İnklüziv təhsil xüsusi məktəblərdən imtinaya və ya onların sayının azalmasına gətirib çıxaracaqdır.

Müasir cəmiyyətdə SİM insanlara dəstək ictimai səviyyədə maarifləndirici, məlumatlandırıcı işlərin görülməsini də tələb edir. Çünki ictimai şüurun formalaşdırılması inklüziv təhsil sahəsində siyasətin dəstəklənməsində böyük əhəmiyyət daşıyır. Yalnız əlilliyi olanlara münasibətdə ictimai fikir dəyişdiyi, həmçinin əlverişli və təhlükəsiz mühit yaradıldığı zaman uşaqların və böyüklərin iştirakına imkan yaranacaqdır.

İnklüziya sahəsində araşdırmalar qeyd edir ki, cəmiyyət əlilliyi olan uşaqların assimilyasiyasına neytral və ya passiv-mərhəmət mövqeyi nümayiş etdirir: belə uşaqların problemi ətrafdakılar tərəfindən mühitin öhdəliyi kimi deyil, uşaqların öz çətinlikləri kimi qəbul edilir. Cəmiyyətdə SİM uşaqları əhatə edən əksəriyyət onlara qarşı passiv tolerantlıq göstərir.

Buna görə də inklüziv təhsil bu gün yalnız hamı üçün təhsil sisteminin möhkəmlənməsi prosesi kimi deyil, həm də SİM insanların diskriminasiyasının aradan qaldırılmasının səmərəli vasitəsi kimi qəbul edilir.

İnklüziv təhsilin məktəb həyatına gətirdiyi dəyişikliklərin nəticəsində yalnız sağlamlıq imkanları məhdud uşaqlar deyil, bütün uşaqlar qazanacaqlar.

**SİM uşaqların ümumtəhsil məktəblərində təhsili** bir çox ölkələrin, eləcə də Azərbaycanın cəlb olunduğu **inklüziv təhsil sisteminin qanunauyğun inkişaf mərhələsidir. Bu inkişaf sxematik olaraq aşağıdakı mərhələlərdən keçmişdir:**

**I mərhələ – diskriminasiya (SİM uşaqlar ümumiyyətlə təhsildən kənarda qalır);**

**II mərhələ – seqreqasiya (SİM uşaqlar ya xüsusi məktəblərdə oxuyur, ya da evdə təhsilə cəlb olunur);**

**III mərhələ – inteqrasiya (SİM uşaqlar ümumtəhsil məktəblərində tipik uşaqlarla birlikdə, lakin ayrı siniflərdə xüsusi proqram əsasında oxuyur);**

**IV mərhələ – inklüziya (SİM uşaqlar ümumtəhsil müəssisələrində tipik uşaqlarla eyni siniflərdə təhsil alır).**

SİM uşaqların təhsilinə belə yanaşma həyatda müxtəlif xarakterli səbəblərlə əlaqədardır. Ümumilikdə bu səbəbləri iqtisadi, hüquqi inkişaf baxımından müəyyən səviyyəyə nail olmuş cəmiyyət və dövlətlərin sosial tələbləri kimi müəyyənləşdirmək olar.

**Son mərhələ** cəmiyyət və dövlətlər tərəfindən əlilliyi olan şəxslərə münasibətin dəyişdirilməsi, yalnız hüquqlarının tanınması deyil, təhsil də daxil olmaqla, həyatın müxtəlif sahələrində **onlara digər insanlarla bərabər imkanların yaradılması** ilə xarakterizə olunur.

YUNESKO-nun sorğusu əsasında (1989) ölkələrin 3/4-nün (sorğuda iştirak etmiş 58 ölkədən 43-ü) sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilini qəbul etdiyi müəyyənləşdirilmişdir.

İnklüziv təhsil uşaqyönümlü metodologiyanı inkişaf etdirməyi hədəf götürür və bütün uşaqların – fərdlərin təhsildə müxtəlif ehtiyaclara malik olduqlarını qəbul edir. İnklüziv təhsil uşaqların fənlər üzrə müxtəlif təlim ehtiyaclarının təmin edilməsi üçün daha səmərəli olan yanaşmaları işləyib hazırlamağa cəhd edir.

İnklüziv təhsilin əsasında aşağıdakı istiqamətləri əsas götürən **ideologiya** durur:

- Bütün insanlara eyni münasibəti təmin edərək hər cür diskriminasiyadan uzaq durmaq;
- Xüsusi təlim ehtiyacları olan uşaqlar üçün ümumtəhsil müəssisələrində şərait yaratmaq.

**İnklüziv təhsilin prinsipləri:**

1. İnsanın dəyəri onun qabiliyyət və nailiyyətlərindən asılı deyildir;
2. Hər bir kəs hiss etmək və düşünmək qabiliyyətinə malikdir;
3. Hər kəs ünsiyyət hüququna malikdir və o dinlənilməlidir;
4. Bütün insanlar bir-birinə lazımdır;
5. Həqiqi təhsil yalnız real münasibətlərin kontekstində mövcud ola bilər;
6. Bütün insanlara öz həmyaşıdlarının dəstək və dostluğu lazımdır;
7. Bütün şagirdlərin inkişafı onların bilik və bacarıqlarından asılıdır;
8. İnsanların müxtəlifliyi həyatın bütün sahələrini inkişaf etdirir.

İnklüziv təhsil məktəbəqədər, orta, peşə və ali təhsil mərhələlərini ehtiva edir. Bununla o, SİM insanların davamlı təhsilinin və inkişafının təmin olunmasına xidmət edir.

## 2. Dünya praktikasında inklüziv təhsilin təşkili məsələləri

1970-ci illərdən başlayaraq xaricdə əlilliyi olan şəxslərin təhsil imkanlarının genişləndirilməsi ilə bağlı normativ aktların hazırlanmasına başlanılmışdır. Müasir təhsil siyasətində ABŞ və Avropa bir neçə yanaşmanın inkişafına nail olmuşdur:

1. təhsilin əlçatanlığının genişləndirilməsi (widening participation);
2. hakim tendensiyaya çevrilmə (mainstreaming);
3. inteqrasiya (integration);
4. inklüziya (inclusion).

**Meynstriminq** hesab edirdi ki, əlilliyi olan uşaqlar öz yaşıdları ilə **bayramlarda, məktəbdənkənar proqramlarda** ünsiyyət saxlamalıdır.

**İnteqrasiya** məktəbdə heç bir dəyişiklik olunmadan, məktəbi SİM uşaqların imkanlarına uyğunlaşdırmadan xüsusi siniflərin təşkilini nəzərdə tuturdu.

Azərbaycanda "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunun 12-ci maddəsinin tələblərinə əsasən, sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrində təhsil almalarını təmin etmək üçün "İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili qaydaları" təsdiq olunmuşdur. Həmin qaydalara əsasən, inteqrasiyalı təhsil sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrində xüsusi təhsil proqramları ilə xüsusi siniflərdə təhsilinin təşkili ilə bağlı məsələləri əhatə edir.

**İnklüziya** isə məktəbin istisnasız **bütün uşaqların ehtiyaclarına cavab verəcək reformasiyasını və yenidən planlaşdırılmasını** nəzərdə tutur.

"Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda xüsusi təhsil, evdə təhsil və inteqrasiyalı təhsilin təşkil olunması ilə bağlı normaların nəzərdə tutulmasına baxmayaraq, inklüziv təhsilə dair müddəalar yer almamışdır. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın 1.4-cü bəndində sağlamlıq imkanları məhdud şəxslərin inkişafı və inklüziv təhsili üzrə dövlət proqramının hazırlanması, təsdiqi və həyata keçirilməsi nəzərdə tutulmuşdur. 2017-ci ildə "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

## SİM uşaqlar üçün digər təhsilalma formaları

SİM uşaqların təlim və təhsil prosesinin dövrləşdirilməsinə başqa bir yanaşma da var və şərti olaraq üç mərhələyə ayrılır:

I. XX əsrin əvvəlləri və 60-cı illərin ortaları – "tibbi model" → seqreqasiya.

II. XX əsrin 60-cı illərinin ortalarından 80-ci illərin ortalarına qədər – "normallaşdırma modeli" → inteqrasiya.

III. XX əsrin 80-ci illərinin ortalarından hazırki dövrə qədər – "sosial model" → inklüziya.

Bu dövrləşdirməyə əsasən SİM uşaqların xüsusi təhsili seqreqasiya hesab olunur.

Xüsusi təhsil **xüsusi təhsil müəssisələri**ndə, **xüsusi təhsil bölmələri**ndə, **xüsusi şərait yaradılan ümumi təyinatlı təhsil müəssisələri**ndə Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş formalarda həyata keçirilir.

**a. Evdə təhsilin təşkili**

- Sağlamlıq vəziyyətinə görə təhsil müəssisəsində təhsil almaq imkanı olmayan şəxslərin təhsili müvafiq təhsil müəssisəsi vasitəsilə evdə təşkil edilir.
- Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısı və evdə təhsilin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**b. Stasionar müalicə müəssisələrində təhsilin təşkili**

- Sağlamlıq imkanları məhdud şəxslər tibb müəssisələrində uzunmüddətli (21 gündən artıq) stasionar müalicədə olarsa, müvafiq icra hakimiyyəti orqanı psixoloji-tibbi-pedaqoji komissiyanın qərarı əsasında onların müvafiq ümumi tədris proqramlarına uyğun təhsil almalarını təşkil edir.
- Stasionar şəraitdə təhsilin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**c. Ümumi təyinatlı təhsil müəssisələrində xüsusi təhsilin təşkili**

- Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq sağlamlıq imkanları məhdud şəxslərin psixoloji-tibbi-pedaqoji və ya tibbi-sosial ekspert komissiyasının qərarına əsasən xüsusi şərait yaradılan ümumi təyinatlı təhsil müəssisələrində təhsil almaq hüququ vardır.
- Təhsil müəssisəsinin rəhbərliyi sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində zəruri köməkçi xidmət təşkil etməlidir.

## 3. Əlilliyi olan uşaqlara iki yanaşma: tibbi və sosial model

Müasir dövrdə beynəlxalq və yerli hüquqi sənədlər əlilliyi olan insanlara xəstə kimi deyil, **sağlamlıq imkanları məhdud** insan kimi baxmağı tələb edir. Bu, əlilliyə sosial yanaşmanı formalaşdırır. **Sosial model** SİM uşaqların bacarıqlarını inkişaf etdirmək üçün onların bütün hüquqlardan lazımınca yararlanmasına şərait yaradır.

Bugünədək isə SİM uşaqların cəmiyyətə inteqrasiyası tibbi model əsasında məhdudlaşdırılmışdır.

**Əlilliyə tibbi yanaşma, tibbi model** baxımından SİM uşaq **problem** deməkdir. Keçmişdə SİM uşaqlara onların pozuntuları prizmasından baxılırdı, vacib "müalicələrə", institutlaşdırmaya, cəmiyyətdən təcridə təhrik edilirdi. Hətta bəzən belə uşaqlar həyatdan da məhrum edilirdi. Bu gün yüksək texnoloji həll, dərman və terapiya metodları daha konstruktiv xarakter daşıyır (məsələn, eşitmə məhdudiyyəti olan uşaqlar üçün qulaq aparatı).

Bu model çərçivəsində əlilliyi olan uşaqlardan cəmiyyətə və olduqları mühitə daha çox uyğunlaşma gözlənilir. Unudulur ki, bu uşaqların da olduqları kimi qəbul edilmək hüquqları var.

Çox zaman onları düşdükləri mühitə inteqrasiya etməyə çalışırlar. İnteqrasiya zamanı da uşağın probleminə getdiyi təhsil müəssisəsinin deyil, öz şəxsi problemi kimi yanaşılır.

Məsələn, uşaq hər hansı bir fəaliyyətin öhdəsindən gələ bilmirsə, təlimin planlaşdırılması dəyişdirilmir, bu, onun funksional fəaliyyətinin çatışmazlığı kimi qəbul edilir. Uşaq, demək olar ki, məktəb həyatında digərləri ilə birgə iştirakı üçün haqq qazanması uğrunda xeyli qüvvə və vaxt sərf etməli olur.

Tibbi yanaşmanın tətbiqi zamanı valideynlər müəllim, həkim və psixoloqlardan övladlarına uyğun təlim üsullarından daha çox, real imkanları barədə çeynənmiş məlumatlar alır. Bununla yanaşı, ən "inandırıcı" tövsiyələr uşağın xüsusi məktəbdə və ya evdə təhsilindən ibarət olur.

**Əlilliyin sosial modeli**

Əlilliyin sosial modeli cəmiyyətdə mövcud olan və uşağa öz həyatını müəyyənləşdirməyə imkan verməyən, onu əlil edən maneələrə diqqət yetirir. Sosial model pozuntu və əlilliyi tamamilə fərqli anlayışlar kimi qəbul edir.

"Pozuntu – fiziki, mental və ya intellektual funksiyanın uzun müddətə və ya "daimi" itirilməsidir." "Əlillik – cəmiyyətdə digər üzvlər ilə müqayisədə normal həyat imkanlarının itirilməsi və ya məhdudlaşdırılmasıdır." (DPI, 1981)

Pozuntular və əlillik həmişə olub və olacaqdır, çox zaman xeyli xoşagəlməzlik yaradır, normal həyat fəaliyyətini çətinləşdirir. Belə bir yanaşma mövcuddur ki, əlilliyə münasibətdəki mövqe və onlara qarşı yönəldilmiş diskriminasiya cəmiyyətin "əməlidir". Bunun sağlamlıq pozuntusu ilə ciddi bir əlaqəsi yoxdur.

Sağlamlıq imkanları məhdud olan şəxs bədənin hər hansı üzvü və ya beynin imkanları baxımından nisbətən məhduddur. Bu, pozuntu hesab olunur. Lakin bunlar insanı insanlıqdan çıxartmır. Təəssüf ki, bir çox insanlar əlilliyi olan şəxsləri olduqları kimi qəbul edə bilmirlər. Kimlərinsə qorxusu, cahilliyi, məlumatsızlığı, stereotip fikirləri, önmühakiməsi digərlərini məhdudlaşdırır.

Əlilliyə sosial yanaşmanın anlaşılması və qəbul edilməsi artıq SİM insanların özünüqiymətləndirməsini yüksəldir və onların bərabər hüquq, bərabər imkanlar uğrunda mübarizəsinə ikinci nəfəs verir. SİM insanların özününqiymətləndirmə bacarığı və fəallığı uşaqlıqdan inkişaf etdirilməlidir. Uşağın erkən yaş dövründə onunla ünsiyyətdə olan hər kəs – valideyn, müəllim, həkim və digərləri bu modeli anlamalı və qəbul etməlidirlər.

İnsanın sağlamlıq məhdudiyyətini aradan qaldırmaq üçün hədsiz arzularımız və üsullar axtarmağa köklənməyimiz insanların müxtəlifliyini və bir-birlərinə bənzəmədiklərini unutmağımıza səbəb olur. Xüsusilə ibtidai və orta məktəbdə bu yanaşma təhsil sistemi üçün

böyük əhəmiyyət kəsb edir. Əlilliyi olan insanlar və həmçinin başqa cür azlıqlara daxil olanlar haqqında önmühakimələr irsən ötürülmür. Onlar digərlərinin laqeydlik və önmühakimləri ilə qarşılaşdıqdan sonra qazanılır. Diskriminasiyadan azad olmaq üçün təhsil sistemində dəyişiklik etməkdən başlamaq lazımdır.

İstisnasız olaraq bütün uşaqların hamı üçün bərabər səviyyədə əlçatan təhsilə inklüziyası uğrunda xoşməramlı mübarizə tibbi və sosial model arasındakı fərqi anlamadan və qəbul etmədən nəticə verməyəcək.

**Tibbi və sosial modeli fərqləndirən cəhətlər**

| Tibbi model | Sosial model |
|---|---|
| Uşağın qüsurlu olması | Hər bir uşağın dəyərli olması və olduğu kimi qəbul edilməsi |
| Diaqnoz | Uşağın özü və ətrafı tərəfindən müəyyənləşdirilməmiş güclü xüsusiyyətləri və ehtiyacları |
| Damğa vurma | Maneələrin dəf edilməsi və problemlərin həlli |
| Pozuntunun diqqət mərkəzində olması | Nəticəyönümlü müəssisələrin təşkili |
| Ehtiyacların qiymətləndirilməsi; monitorinq; pozuntuların terapiyası | Əlavə resurslardan istifadə vasitəsilə standart xidmətlərin əlçatanlığı |
| Seqreqasiya: xüsusi xidmətlərin təmini | Valideyn və mütəxəssislərin hazırlanması və öyrədilməsi |
| Fərdi ehtiyaclara əhəmiyyət verilməməsi | Uşaqlararası ünsiyyətin “yetişdirilməsi” |
| Seqreqasiyanın başqa bir təzahürü: normal vəziyyətin az-çox bərpası. | Müxtəliflik alqışlanır və qəbul edilir. Hər bir uşağa inklüziv yanaşma dəstəklənir. |
| Cəmiyyət dəyişməz olaraq qalır. | Birgəlik inkişaf edir. |

**Nəticə:**

- İnklüziv təhsil üzrə bütün cəhdlər hüquqa əsaslanır; əgər biz bunu acıma duyğusuna görə ediriksə, lazım olan nəticəni ala bilmərik;
- Bütün uşaqlar oxuya bilər: biz onların təhsili üçün münasib şərait yaratmalıyıq;
- Əgər inklüziv təhsil konsepsiyası bütün məktəb sisteminə uyğun işlənərsə, o zaman hər bir uşaq öz təhsili üçün yer tapacaq və bu yer onun üçün ən yaxşısı olacaq.

## Mövzu 2. İNKLÜZİV TƏHSİLİN HÜQUQİ BAZASI

### 1. Beynəlxalq sənədlərdə SİM uşaqların hüquqlarının qorunması və inklüziv təhsil haqqında

| № | Sənədin adı | Məzmun | Nə vaxt qəbul olunub | Harada |
|---|---|---|---|---|
| 1. | Millətlər Liqasının Uşaq Hüquqlarının Bəyannaməsi (Cenevrə Bəyannaməsi) | İlk dəfə olaraq uşaqların əqli və fiziki zəifliyinə görə xüsusi müdafiəyə ehtiyacı olduğunu göstərmişdir. | 1924-cü il | Cenevrədə |
| 2. | Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (ÜİHB) | Maddə 2. Hər bir insan irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiy-yəti, əmlak vəziyyəti, silk mənsubiyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan hazırkı Bəyannamədə bəyan edilən bütün hüquqlara və bütün azadlıqlara malik olmalıdır. | 1947 – 1948-ci illər | BMT |
| 3. | Uşaq Hüquqları Konvensiyası (Uşaq Hüquqları Bəyannaməsi) | "Əqli və ya fiziki çatışmazlığı olan uşaq onun ləyaqətini təmin edən, özünə inamını artıran və cəmiyyət həyatında fəal iştirakını asanlaşdıran şəraitdə tam dəyərli və ləyaqətli həyat sürməlidir". | 1989-cu il | BMT |
| 4. | Əlilliyi olan insanlara bərabər imkanların yaradılması üzrə standart qaydalar | Təhsil məcburi olan ölkələrdə onu, ən ağır forma da daxil olmaqla, bütün əlillik formalarına malik olan uşaqlar üçün təmin etmək lazımdır. | 1993-cü il | BMT |
| 5. | Təhsil hüququna dair Salamanka Bəyanatı | Salamanka Bəyanatı hər bir uşağın təhsil almaq kimi fundamental hüquqa malik olduğunu və xüsusi təhsil ehtiyaclarının əlillik və öyrənmə ilə bağlı çətinliklərdən qaynaqlandığını bəyan edir. Bəyanat, həmçinin uşaqların sırf uşaq yönümlü təlim metodu ilə | 2001-ci il | Salamanka |

| | | | | |
|---|---|---|---|---|
| | | təmin edilmələrini tövsiyə edir. Əlavə olaraq, bəyanat inkişaf və məktəbə hazırlığın gücləndirilməsində əlilliyi olan uşaqlar üçün davamlı inklüziv təhsil imkanları və erkən təhsilin əhəmiyyətini xüsusi olaraq vurğulayır. | | |
| **6.** | BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyası | Maddə 1.<br>"Bu Konvensiyanın məqsədi bütün əlillər tərəfindən bütün insan hüquqlarının və əsas azadlıqlarının tam və bərabər səviyyədə həyata keçirilməsini həvəsləndirməkdən, müdafiə və təmin etməkdən, eləcə də onların ləyaqətinə hörmət edilməsini həvəsləndirməkdən ibarətdir." Sənədin preambula hissəsində göstərilir ki, əlilliyi olan uşaqlar başqa uşaqlarla bərabər səviyyədə bütün insan hüquqları və fundamental azadlıqlardan tam şəkildə istifadə etməlidir.<br>Konvensiya ictimai həyatda hamının bərabər qaydada iştirakına diqqət yetirir və əlilliyi olan uşaqların oynamaq, idman tədbirlərində və mədəni həyatda iştirak etməsinin əhəmiyyətini vurğulayır. | 2006-cı il | BMT |

## Əlilliyi olan uşaqların funksionallığına dair beynəlxalq təsnifat (FBT)
## ( Fəaliyyət, əlillik və sağlamlığın beynəlxalq təsnifatı)

### FBT-nin konsepsiyası

FBT insan sağlamlığının bütün aspektlərini və rifahın sağlamlıqla bağlı bəzi komponentlərini əhatə edir və bunları *sağlamlıq sahələri* və *sağlamlıqla əlaqəli sahələr* baxımından təsvir edir. Təsnifat sağlamlığın geniş təhlilinə sadiq qalaraq sağlamlığa aidiyyəti olmayan, məsələn, sosial-iqtisadi amillərdən qaynaqlanan situasiyalardan bəhs etmir. Məsələn, irq, cins, din və ya başqa sosial-iqtisadi xüsusiyyətlərə görə insanlar onları əhatə edən mühitdə vəzifələrini yerinə yetirməkdə məhdudiyyətlərlə üzləşə bilərlər, lakin bunlar FBT-də təsnif olunduğu kimi sağlamlıqla bağlı iştirak məhdudiyyətləri hesab olunmur.

FBT-nin yalnız əlilliyi olan insanlara şamil olunduğuna dair yanlış fikir formalaşmışdır; əslində bu təsnifat *bütün insanlara* aiddir. Sağlamlıq və sağlamlıqla bağlı bütün vəziyyətlər FBT-dən istifadə etməklə təsvir edilə bilər.

**“Funksionallığa dair Beynəlxalq Təsnifat: uşaq və gənclər (FBT–UG)” sənədinin yaradılması səbəbləri**

FBT-UG praktik, fəlsəfi, taksonomik və ictimai sağlamlıq mülahizələrinə əsaslanaraq hazırlanmışdır.

A. Praktik səbəb

Praktik nöqteyi-nəzərdən xidmət sistemlərində istifadə oluna biləcək uşaq əlilliyinə dair müfəssəl təsnifatın yaradılması nəzərdə tutulsa da, gerçəkləşdirilməmişdir. Təsnifat uşaqların tibbi, təhsil, sosial və abilitasiya hüquqlarından yararlanmaq formasında həyata keçirilməsi ilə yalnız uşaq və gənclərə xas fiziki, sosial və psixoloji xüsusiyyətləri nəzərə alan sistemin yaradılmasını tələb edirdi. Beləliklə, FBT-UG uşaq və gənclərin fəaliyyət dünyasını geniş şəkildə əhatə etmək üçün hazırlandı. Bundan başqa, uşaqlıq və yeniyetməlik dövrlərində fəaliyyət, əlillik və sağlamlıq vəziyyətlərinin təzahürləri böyüklərlə müqayisədə öz təbiəti, intensivliyi və təsiri baxımından fərqlidir. Bu fərqlərlə yanaşı, FBT-UG-də böyümə və inkişafla əlaqədar meydana çıxan dəyişikliklər nəzərə alınmışdır.

B. Fəlsəfi səbəb

Uşaq və gənclərin sağlamlığını və fəaliyyətini müəyyənləşdirən təsnifatın BMT-nin “Əlillərin hüquqları haqqında” Konvensiyası (2006) tərəfindən müəyyənləşdirilən fundamental insan hüquqları ilə vəhdət təşkil etməsi fəlsəfi nöqteyi-nəzərdən çox mühüm idi. FBT əsasında yaranan təsnifat olaraq, FBT-UG fəaliyyət və sağlamlıq vəziyyətlərini kodlar formasında daha dəqiqliklə təsvir edir ki, bu da daha kamil fəaliyyətdən xəbər verir. İctimai sağlamlıq üzrə çərçivənin təşkili uşaqlıq dövründə əlilliyin aradan qaldırılması istiqamətində demoqrafik yanaşmanın təmin edilməsinə əsaslanır. FBT-UG-nın bütöv məzmunu uşaq hüquqları naminə qəbul edilən beynəlxalq konvensiya və bəyannamələr ilə tam uyğunluq təşkil edir. Beləliklə, FBT-UG tərkibindəki kateqoriya və kodların sənədləşdirilməsi uşaq və gənclərin hüquqlarının təminatının bir sübutu kimi çıxış edə bilər.

**FBT-UG-nın məqsədi**

FBT-UG uşaq və gənclərin sağlamlıq və fəaliyyət xüsusiyyətlərini qeydə almaq məqsədilə həkimlər, təhsil işçiləri, siyasətçilər, ailə üzvləri, istehlakçılar və tədqiqatçılar tərəfindən istifadə üçün nəzərdə tutulmuşdur. FBT-UG körpəlik, uşaqlıq və yeniyetməlik dövrlərində uşaq və gənclər üçün mühüm əhəmiyyət kəsb edən bədən üzvlərinin funksiyaları, quruluşu, fəaliyyət və iştirak məhdudiyyətləri və ətraf mühit amilləri kimi məsələlərin qeydə alınması üçün konseptual çərçivə, ümumi dil və terminologiyanı təklif edir. FBT-UG uşaq və gənclərin sağlamlığı, fəaliyyəti və inkişafını müəyyənləşdirmək və qeydə almaq məqsədilə müxtəlif ölkələrdə, müxtəlif sahələrdə, dövlət sektorlarında istifadə oluna bilər.

TƏRİFLƏR

Sağlamlıq kontekstində:

**Bədən üzvlərinin funksiyaları** bədən sistemlərinin fizioloji funksiyalarıdır (o cümlədən psixoloji funksiyalar).

**Bədən üzvləri** orqanlar, ətraflar və onların komponentləri kimi bədənin anatomik hissələridir.

**Funksional pozuntular** bədən üzvlərinin funksiyası və ya quruluşunda ciddi pozuntu və ya itki kimi problemlərdir.

**Fəaliyyət** bir tapşırıq və ya işin fərd tərəfindən icrasıdır.

**İştirak** fərdin həyati vəziyyətlərə cəlb olunmasıdır.

**Fəaliyyət məhdudiyyətləri** fərdin fəaliyyətlərin icrasında üzləşdiyi çətinliklərdir.

**İştirak məhdudiyyətləri** fərdin həyati vəziyyətlərdə rastlaşdığı problemlərdir.

**Ətraf mühit amilləri** insanların yaşadığı və fiziki, sosial və sair münasibətlərin qurulduğu mühiti təşkil edir.

## 2. Azərbaycan Respublikasında inklüziv təhsilin qanunla tənzimlənməsi

| № | Sənədin adı | Məzmun | Nə vaxt qəbul olunub |
|---|---|---|---|
| **1.** | “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” qanun | Qanunun 12-ci maddəsinin tələblərinə əsasən, sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrində təhsil almalarını təmin etmək üçün “İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili qaydaları” təsdiq olunmuşdur. Qanunda inklüziv təhsilin təşkili məsələləri öz əksini tapmayıb. | 2001-ci il |
| **2.** | “Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005-2009-cu illər)” | Proqram çərçivəsində Təhsil Nazirliyi və UNİCEF tərəfindən 2005-ci ildən etibarən Azərbaycanda birgə inklüziv təhsil layihələri həyata keçirilməyə başlanmışdır. | 2005-ci il |

| | | | |
|---|---|---|---|
| **3.** | 2008-ci il 2 oktyabr tarixli qanunla Azərbaycan Respublikası “Əlillərin hüquqları haqqında” Konvensiyanı ratifikasiya etmiş, sənəd 28 yanvar 2009-cu il tarixdən qüvvəyə minmişdir. | Sözügedən Konvensiyanın məqsədi onun 1-ci maddəsində göstərildiyi kimi, "bütün əlil insanların insan hüquqları və əsas azad-lıqlarına tam və bərabər imkanlarla yararlanmalarına təkan vermək, bunu müdafiə və təmin etmək, habelə onların ləyaqətinə hörmətlə yanaşılmasını dəs-təkləməkdir". Hazırda əlilliyi olan şəxslərin hüquqi statusu Azərbaycan Respublikası Konstitusiyası və "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşı-sının alınması, əlillərin və sağlamlıq imkan-ları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir. | 2008-ci il |
| **4.** | “Təhsil haqqında” Qanun | Maddə 5.<br>5.1. Dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına tə-minat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir;<br>5.2. Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, iqtisadi və sosial vəziyyətindən, mənşə-yindən, sağlamlıq imkanlarından asılı olma-yaraq hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol veril-məməsinə təminat verir. | 2009-cu il |
| **5.** | 2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı | Dövlət Proqramının məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüqu-qunu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etmək-dən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir. | 2017-ci il |

## 2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı

2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

**Dövlət Proqramı 6 bölmədən ibarətdir:**




**Giriş hissədə** 2004-cü ildən başlayaraq Azərbaycan Respublikasında inklüziv təhsilin tətbiqi ilə bağlı təşəbbüslər qeyd olunmuş, sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla birgə təhsilə (inklüziv təhsilə) cəlb olunması üçün “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın (bundan sonra – Dövlət Proqramı) həyata keçirilməsinin zəruriliyi göstərilmişdir.

Dövlət Proqramının **məqsədi** sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir.

Dövlət Proqramının əsas **vəzifələri** aşağıdakılardır:

- sağlamlıq imkanları məhdud şəxslərin təhsilin bütün pillələri üzrə inklüziv təhsil hüququnu təmin etmək məqsədi ilə normativ hüquqi aktların təkmilləşdirilməsi;
- təhsil müəssisələrinin və tədris proqramlarının sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması üçün tədbirlərin görülməsi;
- sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili ilə bağlı pedaqoji kadrların hazırlanması və ya əlavə təhsilə cəlb olunması;
- inklüziv (inteqrativ) təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazasının yaradılması;
- sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və sosial inteqrasiyasının vacibliyi barədə aidiyyəti dövlət qurumları ilə birlikdə təbliğat və ictimai maarifləndirmə işinin aparılması.

Dövlət Proqramının həyata keçirilməsindən aşağıdakı nəticələr gözlənilir:

- təhsilin bütün pillələri üzrə təhsil müəssisələrinin infrastrukturunun sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması təmin ediləcəkdir;
- informasiya texnologiyalarının tətbiqi ilə sağlamlıq imkanları məhdud şəxslər üçün informasiya əldə etmək imkanları genişləndiriləcəkdir;
- məktəbəqədər, ümumi və ilk peşə-ixtisas təhsili üzrə təhsil proqramlarında sağlamlıq imkanları məhdud şəxsləri təhsildən istifadə imkanları ilə digər şəxslərlə bərabər səviyyədə təmin edən dəyişikliklər ediləcəkdir;
- inklüziv (inteqrativ) təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazası yaradılacaqdır;
- sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması imkanlarının qiymətləndirilməsində yeni qaydalar tətbiq olunacaqdır;
- sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüquqları barədə əhalinin məlumatlılıq səviyyəsi artacaqdır.

# Mövzu 3. SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN UŞAQLARIN XÜSUSİYYƏTLƏRİ VƏ PSİXOFİZİOLOJİ İNKİŞAFI

## 1. Psixi inkişafa təsir edən amillər




İnsan şəxsiyyəti bir çox amillərin təsiri və qarşılıqlı fəaliyyətinin nəticəsi kimi formalaşır. Bu prosesdə bioloji amillər, mühit amili, tərbiyə və şəxsi fəallığın rolu vardır.

**İrsiyyətin rolu.** İnsan bioloji varlıq kimi doğulur, buna görə də irsiyyət qanunu ona öz təsirini göstərir. İrsən fiziki əlamətlər (qamət, sifət quruluşu, gözün və saçın rəngi və s.), habelə fizioloji əlamətlər (sinir sisteminin tipi, sinir hüceyrələrinin miqdarı və s.) nəsildən nəslə keçir.

İnsan nə hazır qabiliyyətlə, nə də "ağ lövhə" kimi doğulur. O, müəyyən təbii imkanlarla dünyaya gəlir. Təbii imkanlara sinir sisteminin və beyin quruluşunun xüsusiyyətləri, analizatorlar sistemi (görmə, eşitmə), nitq aparatı və s. daxildir. İnsanın təbii imkanları dəyişməz deyildir. Onlar həyat şəraitinin, tərbiyə və mühitin təsiri ilə dəyişə bilər.

**Mühitin rolu.** Mühit insana müsbət və ya mənfi təsir göstərə bilər. İnsanlar üçün yaradılan əlverişli mənzil-məişət şəraiti, mədəni-maarif, təhsil və sağlamlıq müəssisələri, əmək və istirahət şəraiti, insan münasibətləri şəxsiyyətin inkişafına güclü təsir göstərən sosial mühit amillərinə daxildir. Cəmiyyətdə gedən proseslər ailə, məktəb, əmək kollektivlərinə də öz təsirini göstərir. Cəmiyyətin demokratik xarakteri, hüququn aliliyi, ədalət prinsipləri şəxsiyyətin inkişafı üçün böyük əhəmiyyətə malikdir. Şəxsiyyətin tələbatlarını, mənəvi sərvətlərini də cəmiyyət müəyyən edir.

**Tərbiyənin rolu.** Mühit insana kortəbii təsir göstərdiyi halda, tərbiyə məqsədyönlü və planlı aparılır. İnsanın mühitə münasibəti tərbiyə ilə bağlıdır, onunla tənzim olunur. Tərbiyə mühitin müsbət cəhətlərinə istinad edir, onun mənfi təsirlərini neytrallaşdıra bilir.

Tərbiyə insanın təbii imkanlarının üzə çıxarılması və inkişafına kömək göstərir. O, uşaqların həyat və fəaliyyətini təşkil etməklə onların maraq və qabiliyyətlərinin inkişafına əlverişli şərait yaradır. Bir sözlə, tərbiyə şəxsiyyəti "layihələşdirir".

**Şəxsi fəallığın rolu.** İnsan mühitin və tərbiyənin passiv obyekti kimi yox, fəal subyekti kimi çıxış edir, mühitə və tərbiyə prosesinə, özünün şəxsiyyət kimi formalaşmasına fəal təsir göstərir. Tərbiyə uşaq və yeniyetmələri ancaq obyekt kimi qəbul edərsə, çox şeydən məhrum olar, öz məqsədinə çata bilməz.

İnsanın şəxsi fəallığı müxtəlif formalarda təzahür edir: zehni, əmək, fiziki, yaradıcı, ictimai-siyasi. Öyrənmə fəaliyyəti insanın bilik və bacarıqlara yiyələnməsinə, ideya-mənəvi tərbiyəsinə və psixi inkişafına kömək göstərir. Əmək fəaliyyəti gənc nəslin əmək və peşə hazırlığında, əxlaqi və fiziki tərbiyəsində, xarakter və iradənin formalaşmasında böyük rol oynayır. İctimai fəaliyyət prosesində yeniyetmə və gənclər sosial təcrübə qazanır, ünsiyyət mədəniyyətinə, kollektivçilik keyfiyyətlərinə yiyələnirlər.

**Nəzərdən keçirilən amillər** - irsiyyət, mühit, tərbiyə və insanın şəxsi fəallığı bir-biri ilə sıx bağlı olub, **bir-birini şərtləndirir.**

## 2. Aktual və yaxın inkişaf zonaları

Təlimi inkişafın lokomativi kimi görən və onu da öz arxasınca aparması fikrini əsas götürən L.S.Vıqotski təlimlə əlaqədar baş verən əqli inkişafın iki səviyyəsini və ya zonasını müəyyən etmişdir. Birinci səviyyəni inkişafın ***fəal, aktual*** **zona**sı adlandırmışdır. Bu zonada şagird gündəlik dərsləri, verilmiş təlim tapşırıqlarını müstəqil surətdə yerinə yetirir, özü **başqasının köməyi olmadan** dərsdə müvafiq materiallardan istifadə edir. Müəllimin şərh etdiyi bəzi cəhətləri izah etməyə **təşəbbüs göstərir** və nəhayət, onda əqli inkişaf elə bir səviyyəyə çata bilir ki, sonralar hər hansı bir məsələni heç kimə ehtiyacı olmadan həll edə bilir.

Bütün bunların nəticəsində şagird bilikləri müstəqil mənimsəyir, elmlərin əsaslarına özü yiyələnməyi bacarır.

Əqli inkişafın ikinci səviyyəsində isə uşaq böyüklərin, müəllimin köməyi ilə daha yüksək nailiyyət əldə edə bilir. L.S.Vıqotski inkişafın bu səviyyəsini "*inkişafın yaxın zonası*" adlandırmışdır. Bu münasibətlə yazmışdır: "Uşaq nəyi **böyüyün köməyilə etmək** iqtidarındadır, bu, onun **yaxın inkişaf zonası**nı göstərir… Beləliklə, yaxın inkişaf zonası uşağın sabahkı gününü, onun inkişafının dinamik vəziyyətini müəyyənləşdirməkdə bizə kömək göstərir". Təlim öz səmərəli nəticəsini vermək və şagirdlərin əqli inkişafına əsaslı təsir göstərmək üçün məhz "inkişafın yaxın zonası"na uyğun təşkil olunmalıdır. Təlimin məzmununu, forma və vasitələrini seçərkən bu tələb birinci tələb kimi nəzərə alınmalıdır.



Təlim fəaliyyətinin səmərəliliyini təmin etmək üçün şagirdlərin mənimsəmə imkanlarının aşkara çıxarılması da zəruridir. Şagirdlərin mənimsəmə imkanlarının aşkara çıxarılmasında senzitiv dövrlər haqqında məlumatların toplanması əhəmiyyətli hesab olunur. Uşağın inkişafının **ayrı-ayrı mərhələlərində** psixikanın bu və ya digər istiqamətdə inkişafı üçün daha **əlverişli şərait** yaranır. Bu cür yaş dövrləri bu və ya digər psixi xüsusiyyət və keyfiyyətin inkişafı üçün nisbətən optimal olarsa, həmin dövrləri **senzitiv dövrlər** adlandıra bilərik. Məsələn, nitqin inkişafı üçün bir yaşdan beş yaşa qədər olan dövr, riyazi qabiliyyətlərin formalaşması üçün 15-20 yaş senzitiv dövr hesab olunur. Psixi inkişafın *senzitiv* dövrlərinin əhəmiyyətini qeyd edərək L.S.Vıqotski yazırdı: "Bu dövrdə hissi həssaslıq inkişafda dərin dəyişikliklər əmələ gətirərək onun bütün gedişinə müəyyən təsir göstərir. Başqa vaxtlarda həmin şərtlər özü tamamilə neytral olar, ya da inkişafın gedişinə əks təsir göstərə bilər. **Senzitiv dövr**lər bizim təlimin **optimal müddətl**əri adlandırdığımız anlarla tam **uyğun gəlir**". Ona görə də şagirdlərlə apardığımız təlim işini onların psixi inkişaflarının "senzitiv" dövrlərinə uyğunlaşdırmaq təlim prosesini optimallaşdırmağın mühüm şərtlərindən biridir.

### 3. SİM uşaqların xarakteristikası və təhsil ehtiyacları

- Əqli gerilik
- Psixi inkişafın ləngiməsi
- Daun sindromu
- Autizm sindromu
- Hiperaktivlik və diqqət əksikliyi sindromu
- Serebral iflic
- Nitq inkişafının ləngiməsi

**Əqli gerilik**

"***Əqli gerilik***" termini hər hansı bir şəxsin şifahi ünsiyyət qurmaq, öz qayğısına qalmaq, ətrafdakı insanlarla qarşılıqlı münasibətləri davam etdirmək kimi qabiliyyətləri ilə bağlı **əqli funksionallığında məhdudiyyətləri** ifadə edir. Bu məhdudiyyətlər uşağın digər uşaqlardan fərqli olaraq daha ləng inkişaf etməsinə, onun öyrənmə fəaliyyətinin daha zəif olmasına səbəb olur. Onlar məktəbdə oxuyan zaman da çətinlik çəkirlər. Onların ətraf aləm haqqında bilik, bacarıq və vərdişlərə yiyələnməsi mümkündür, lakin bu proses uzun müddətli ola bilər.

Əqli geriliyi olan uşaqlar:

- ✓ körpəlikdə başqa uşaqlardan fərqli olaraq daha gec oturur, iməkləyir, yeriyirlər;
- ✓ danışmağı gec öyrənir, yaxud danışanda çətinlik çəkirlər;
- ✓ nəyisə xatırlamaqda çətinlik çəkirlər;
- ✓ reaksiya verməyin lazım olduğunu başa düşməyirlər;
- ✓ fəaliyyətlərinin nəticəsinə adekvat reaksiya verməyə bilərlər;
- ✓ problemləri həll edən zaman çətinlik çəkə bilərlər;
- ✓ məntiqli düşünməkdə çətinlik çəkirlər.

**Əqli geriliyin səviyyələri**

**Yüngül dərəcəli əqli gerilik**

İntellekt səviyyəsi 50-dən 69-a (ahıl yaşda əqli inkişaf 9-12 yaşa uyğundur) qədər olan şəxslərdir. Qeyri-adi fiziki əlamətlər yoxdur. Praktiki bacarıqları öyrənməyə qadirdir. Bu uşaqların əksəriyyətinin inkişafları tipik uşaqlardan fərqlənmədiyinə görə ibtidai sinifdə müvəffəqiyyətsizliklə qarşılaşmayana qədər onları digər uşaqlardan fərqləndirmək çətin olur. Yüngül dərəcəli əqli geriliyi olan şəxslər normaya çox yaxın olduqlarına görə ətraf mühitə asanlıqla uyğunlaşırlar. Bu qrupa aid olan uşaqlar əlavə dəstəklə inklüziv təhsilə qoşula bilərlər. Oxu, yazı, riyazi biliklər kimi təməl akademik bacarıqları mənimsəməkdə gecikmə olur və bilik və bacarıqları 3-6-cı siniflərlə məhdudlaşır. Lakin bu uşaqlar müstəqil yaşamaq üçün cəmiyyətə adaptasiya oluna bilir, qismən və ya tamamilə dəstək verildiyində müəyyən peşə sahələrində işləyə bilirlər. Bu şəxslər işləmək, normal ictimai münasibətlər yaratmaq və cəmiyyətə fayda verə bilmək iqtidarındadır.

**Orta dərəcəli əqli gerilik**

İntellekt səviyyəsi 35-dən 49-a (ahıl yaşda əqli inkişaf 6-9 yaşa uyğundur) qədər olan şəxslərdir. Fərqli fiziki əlamətlər ola bilər. Əksər hallarda, erkən uşaqlıq yaş dövründə (1-3 yaş) ləngimə müşahidə edilir. Sadə kommunikativ bacarıqları öyrənməyə qadirdirlər. İnkişaf xüsusiyyətləri tipik uşaqlardan fərqlənir. Sosial qaydaları mənimsəmələri zəifdir. Öyrənmə prosesi ləng gedir. Sadə gündəlik bacarıqları mənimsəyə bilirlər, lakin kiçik və böyük motorika ilə bağlı problemləri olur. Sadə akademik bilikləri və özünəqulluq bacarıqlarını öyrənə bilir və tanış mühitdə sərbəst formada davrana bilirlər. Yetkinlik dövründə sadə işləri başqasının nəzarəti ilə yerinə yetirirlər.

Bu uşaqların əksəriyyəti inklüziv təhsilə qoşula bilir. Həyatlarını daha rahat və daha müstəqil davam etdirmək üçün fərdi dəstək (fərdi qaydada psixoloq, loqoped və həkimlə görüş) verilməsi müsbət nəticələr əldə etməyə imkan verəcək.

**Ağır dərəcəli əqli gerilik**

İntellekt səviyyəsi 20-dən 34-ə qədər (ahıl yaşda əqli inkişaf 3-6 yaşa uyğundur) olan şəxslərdir. Daimi yardım zəruridir. Bu uşaqların əksəriyyətini doğuş zamanı və ya sonrakı qısa müddətdə fərqləndirmək mümkündür. Əqli geriliklə yanaşı, nitq və motorika problemləri də olur. Özünəqulluq vərdişləri sərbəst, əksər hallarda isə nəzarətlə həyata keçirilir. Gündəlik həyatda lazım olan səviyyədə nitq və motorika problemlərini qismən aradan qaldırmaq mümkündür. İşarələri və sözləri tanıya bilirlər, lakin uzun yazıları oxumaqda çətinlik çəkirlər. Ağır dərəcəli əqli geriliyi olan uşaqların təhsilində  özünəqulluq (tualet, geyinmə, qidalanma), inkişafetdirici bacarıqları, ünsiyyət bacarıqlarının və düzgün davranış qaydalarının mənimsədilməsinə diqqət edilməlidir. Təlim üsullarının dəyişməsi ilə bu qrupa aid olan uşaqların əvvəllər öyrənə bilmədikləri bacarıqları öyrənə bildikləri və həyatlarını davam etdirdikləri müşahidə edilir. Xüsusi təhsil müəssisələrində təhsil ala bilərlər.

**Çox ağır əqli gerilik**

İntellekt səviyyəsi 20-yə (ahıl yaşda əqli inkişaf 3 yaşa uyğundur) qədərdir. Bunun nəticəsində özünə xidmətin, ünsiyyət qabiliyyətinin məhdudluğu nəzərə çarpır. Xüsusi təhsil müəssisələrində təhsil ala bilmirlər, ailənin dəstək və köməyinə möhtacdırlar. Danışa bilmirlər, ətrafa qarşı maraqları yoxdur, əksər hallarda 1-dən çox məhdudiyyət və xəstəlikləri olur. Uşaqlıq dövründə ölüm ehtimalı yüksəkdir.

**Psixi inkişafın ləngiməsi**

Bu problem həm uşaqların səhhəti, həm də pedaqoji baxımsızlıqla bağlıdır. Psixi inkişafın ləngiməsi (PİL) anlayışı altında psixi funksiyaların inkişafının ləngiməsi və bu səbəbdən yaş normalarından geri qalması başa düşülür. Çox vaxt psixi inkişafın ləngiməsi bir sıra xəstəliklərlə müşayiət oluna bilər. Bu zaman ikincili PİL-dən danışmaq mümkündür. Psixi inkişafın ləngiməsinin təzahürləri, əsasən, məktəbdə özünü biruzə verir: belə uşaqlar fiziki və psixoloji cəhətdən məktəbə hazır olmurlar, onlarda bəzi psixi proseslərin və funksiyaların ləng inkişafı müşahidə edilir. Onlar emosional-iradi sahənin və dərketmə fəaliyyətinin yetkinlik dərəcəsinə görə daha erkən yaş səviyyəsindədirlər.

Belə ki, onlarda ümumi biliklərin çatışmazlığı, dar dünya görüşü, ətraf aləm haqqında təsəvvürlərin qeyri-dəqiqliyi, psixi proseslərin lazımınca formalaşmaması, məktəbəqədər motiv və maraqların üstün olması müşahidə olunur. Psixi inkişafın ləngiməsi zamanı uşaq bir yaş dövründən digərinə keçsə də, əvvəlki yaş dövrünə xas olan xüsusiyyətləri nümayiş etdirir.

Psixi inkişafında ləngimə müşahidə edilən uşaqlar biz zənn etdiyimizdən qat-qat çoxdur və getdikcə onların sayı daha da artacaq. İndi onlardan bəziləri kütləvi məktəbin adi və inklüziv siniflərində, bəziləri isə xüsusi məktəbdə təhsil alır. Ümumtəhsil məktəbin adi siniflərində bu uşaqların inkişafında olan problemlər dərinləşir. Əgər belə uşaq xüsusi məktəbə təyin olunursa, onda onun ümumtəhsil məktəbinə qayıtması perspektivi azalır. İnklüziv siniflər isə belə uşaqların problemlərini həll edə bilər: burada psixi inkişafın ləngiməsinin erkən aşkarlanmasından, düzgün diaqnostikasından və erkən korreksiyasından çox şey, ilk növbədə isə, bir çox uşağın gələcək taleyi asılıdır.

Oliqofrenlərdən fərqli olaraq, PİL olan uşaqlarda beyinin qabıq strukturlarının, əsasən də, alın hissəsinin ləng formalaşması müşahidə olunur. Amma əgər oliqofreniyada beyin strukturlarının total və geriyədönməz ləngiməsi müşahidə edilirsə, PİL olan uşaqlar psixi inkişafın bütün qanunauyğun dövrlərini ləng də olsa, ardıcıllıqla keçirlər. "Ləngimə" termini geriliyin yaş, dövrü xarakterini və müvəqqətiliyini vurğulayaraq, ləngimənin aradan qaldırılmasının mümkünlüyünü təsdiq edir. PİL olan uşaqların məktəbə hazırlığının psixoloji aspektlərinin müqayisəli şəkildə öyrənilməsi və araşdırılması böyük praktik əhəmiyyətə malikdir.

Tipik inkişafda olan 6 yaşlı uşaq məktəbə fiziki və psixoloji cəhətdən hazır gəlməlidir; onun intellektual və emosional-iradi vəziyyəti artıq sistematik təlimə hazırdır və onu tələb edir, yəni uşaq "məktəbli" pozisiyasından irəli gələn bütün şərtlərə cavab verə bilir.

Psixi inkişafda ləngimənin xüsusiyyətlərinə aiddir:

- ətrafdakıların köməyi olmadan müstəqil iş görməkdə çətinlik çəkmək;
- məntiqsiz hərəkət, hərəkətlərdə oriyentasiyanın pozulması;
- məkan və zaman anlayışlarını fərqləndirə bilməmək;
- diqqəti toplaya bilməmək, diqqətin davamlılığı, paylanmasının yaş göstəricilərinə uyğun olmaması;
- analiz-sintez edə, ümumiləşdirmə apara, müqayisə və fərqləndirə bilməmək;
- iradi-emosional sahədə, təxəyyüldə qeyri-adekvatlıq;
- hadisələr arasında əlaqə görə bilməmək və bunu nitqi vasitəsilə əks etdirmək;
- hafizənin yaşa uyğun olmaması: bir neçə dəqiqə əvvəl deyilənləri yadda saxlayıb təkrarlamaqda çətinlik çəkmək.

Bütün bunlar uşaqda adaptasiya və təşəbbüskarlığa mane olur.

PİL olan uşaqların hafizə və təfəkkürü səthi olur. Belə ki, uşaq nağıl danışarkən oraya süjet xəttinə aid olmayan əlavə süjetləri də daxil edir, suallara təhriflərlə cavab verir. Təfəkkürün formalarında - hökm, məfhum, əqli nəticələrdə qeyri-adekvatlıq olur, induksiya-deduksiya bacarıqları zəif olur.

Təfəkkürlə nitq sinxron əlaqədədirlər. Nitq üçün təfəkkür inkişaf etməli, məfhumlar formalaşmalıdır ki, uşaq da onu nitqində ifadə edə bilsin. Bəzən PİL olan uşaqlarda "boş verbalizm" adlanan hal baş verir: uşaq sadəcə danışır, amma danışığında heç bir məna olmur.

PİL və əqli gerilik arasında fərqlər mövcuddur. PİL- də ali psixi funksiyaların inkişafı üçün baza mövcuddur, yalnız onu inkişaf etdirmək lazımdır. Əqli geriliyin dərəcəsindən asılı olaraq qeyd edilənləri buraya tədbiq etmək olmur. Onlar, xüsusilə də ağır dərəcəlilər təlimə yatımlı deyillər. Əgər vaxtında PİL korreksiya olunmazsa, əqli geriliyə keçə bilər.

Bəzən uşaqlara diqqət ayrılmır və nəticədə pedaqoji baxımsızlıq dediyimiz hal baş verir ki, valideynlərin bir qismi bunu məktəb problemi kimi qəbul edirlər. Belə uşaqlarda inkişaf zənciri qırılır və onlar bilik, bacarıq, vərdiş kimi təlim ünsürlərini mənimsəyə bilmirlər. Odur ki, onların təhsilinə bir müddət həssas yanaşılmalı və onlar inklüziv təhsilə yönəldirilməlidir.

## Daun sindromu



Daun sindromu əqli gerilik diaqnozu ilə assosiasiya olunan və xromosomların miqdar və ya quruluşundakı pozuntulardan asılı olan məhdudiyyətdir.

Daun sindromu ilə doğulan uşaqların oxşar əlamətləri bunlardır: onların boyu qısa, kəlləsi kiçik və yumru olub, üz nahiyyəsində yastılaşır. Yanaqlar üzün yastılaşmış fonunda bir qədər üzə çıxır. Gözləri uzunsov və kiçik, göz yarığı çəp, gözbucağında dəri büküşlü, ağzı yarıaçıq, dili böyük olur. Belə uşaqların əzələləri və oynaqları zəif inkişaf etmiş olur. Dişlərinə gəldikdə, Daun sindromu ilə doğulan uşaqlarda dişlər əyri olur və normal ardıcıllığa uyğun çıxmır. Onlarda ağız boşluğu normada olduğundan nisbətən kiçik, dil isə böyükdür. Bu sindromla doğulan uşaqların ovucları enli, barmaqları qısa, çeçələ barmaq bir az içəriyə doğru bükülmüş olur. Bir çox uşaqlarda şəhadət barmaqla baş barmaq arasındakı məsafə çox böyükdür.

Daun sindromu ilə doğulan uşaqlarla bağlı verilən məlumatlarda qeyd olunur ki, belə uşaqlarda məhdud anlama bacarığı, böyük və kiçik motor problemləri var. Uşaqların nitqində ləngimə, zəif eşitmə, görmə problemləri olur. Daun sindromu olanlarda göz çəpliyi, yaxındangörmə, uzaqdangörmə əlamətləri daha artıq müşahidə olunur. Onların immunitetləri də zəif olur və bu uşaqlar qulaq, göz infeksiyalarına meyillidirlər. Daun sindromu ilə doğulan körpələrin təxminən üçdə biri ürək çatışmazlığından əziyyət çəkir. Ancaq bunların çoxu hazırda uğurla müalicə oluna bilir. Bəzilərinin anadangəlmə mədə-bağırsaq traktı problemləri olur ki, bunları da cərrahiyyə vasitəsilə aradan qaldırmaq mümkündür.

| **Əqli gerilik, daun və ya psixi inkişafın ləngiməsi olan şagirdlərlə bağlı müəllimlər üçün tövsiyələr** |
| --- |
| 1. Belə uşaqların maraq və motivləri qısamüddətlidir və diqqətləri dağınıqdır. Buna görə də davamlı müşahidə və təşviq etməyə ehtiyac var.<br>2. Gördüklərini və eşitdiklərini tez unudurlar, yaddaşları zəifdir. Buna görə də mövzuları tez-tez təkrarlamaq lazımdır.<br>3. Konkret və dəqiq göstərişləri daha yaxşı qavrayırlar. Konkret olun. Vəzifənizi şifahi olaraq sadəcə göstərişlər verməklə bitmiş bilməyin, bu zaman nəyi nəzərdə tutduğunuzu nümayiş etdirin.<br>4. Qəbul edin ki, siz şagirdin həyatında dəyişiklik yarada bilərsiniz. Şagirdin gücünü və maraqlarını aydınlaşdırın, bunları hər zaman vurğulayın. Onun uğur qazanması üçün imkanlar yaradın.<br>5. Tez yorulur və səbirsizdirlər. Uzun və yeni tapşırıqların həllini mərhələlərə ayırın. Mərhələləri nümayiş etdirin. Şagirdə hər mərhələnin özünə aid tapşırıq parçasını həll etdirin. Lazım olasa, köməklik göstərin.<br>6. Şagirdə gördüyü iş barədə fikrinizi dərhal bildirin.<br>7. Şagirdə gündəlik məişətdə, başqaları ilə münasibət qurmaqda, peşəkarlığa və müvafiq tədqiqat işlərinin aparılmasına aid bilikləri mənimsəməkdə lazım olan bacarıqları öyrədin. Şagirdi qrup fəaliyyətlərinə, yaxud kollektiv işlərə cəlb edin. |

**Autizm**

Autizm - erkən yaş dövründə başlayan, sosial münasibətlər və ünsiyyət sferasında problemlərin olması ilə özünü göstərən ümumi inkişaf problemidir. Autizmin əlamətləri, əsasən, iki yaşından etibarən özünü göstərməyə başlayır. Autizm özünə qapanma, real həyatdan uzaqlaşma kimi təzahür edir. Baxmayaraq ki, autizmin təzahür spektri çox genişdir, əsas simptomları ümumi xarakter daşıyır:

- ✓ sosial münasibətlərdə pozuntu
- ✓ nitq və ünsiyyətdə pozuntu
- ✓ təxəyyüldə pozuntu.

Autizmin davranış simptomlarına aşağıdakılar aiddir:

**Sosiallaşma problemi**. Başqa uşaqların oyunlarına maraq göstərməyə bilər, bacı-qardaşına münasibətdə qəddarlıq nümayiş etdirə bilər, valideynlər onu qucaqda tutduqda, yaxud öpdükdə buna hər yolla mane olmağa çalışır, təmasdan və qucağa alınmaqdan xoşu gəlmir.

**Kommunikativ (ünsiyyət) problemi.** Göz təmasından qaçır, başqaları ilə ünsiyyət qurmur, uzun müddət eyni mövzu üzərində danışır, tək qalmağı xoşlayır, səbəbsiz olaraq ağlayır, gülür və səbəbsiz davranışlar nümayiş etdirir, mənasız sözləri ardıcıl təkrarlayır, ehtiyaclarını ifadə etməkdə çətinlik çəkir, danışmaq əvəzinə hərəkətlərlə ehtiyaclarını ifadə etməyə çalışır, və exolaliya (cavab vermək əvəzinə, özünə deyilənləri eynilə təkrar etmək) müşahidə edilir.

**Qəribə və ya ritual davranış.** Əllərini yellətmə, bir-birinə çırpma, durduğu yerdə öz ətrafında dönmə, xətt boyunca düzmə, öz-özünü yırğalamaq, işığı yandırıb söndürməyə sonsuz maraq göstərir.

**Motorika problemi.** Xırda motorika problemləri, fəza qavramanın defisiti müşahidə edilir, yöndəmsizlik yaxud mükəmməl tarazlıq nümayiş etdirir, əşyaları davamlı olaraq çevirməkdən xoşu gəlir.

**Sensor problemlər.** Saçının qırxılmasına imkan vermir, su prosedurlarından qətiyyətlə imtina edir, musiqi səsinə güclə tab gətirir, əşyaları üzünə çox yaxın tutaraq fırladır, paltar dəyişməyi sevmir, səslərə qarşı həddindən artıq həssaslıq nümayiş etdirir və ya həddindən artıq laqeyddir.

**Özünə xətər yetirmə.** Başını çırpır, özünü dişləyir və bu zaman ağrı əlamətləri göstərmir, öz dərisini qaşıyıb cırmaqlayır, öz saçını yolur, ağrıya qarşı laqeyddir.

Autizmi olan uşaqların inkişafının ümumi qanunauyğunluğu ondan ibarətdir ki, onların təfəkkürünün inkişafında əks olunan bəzi psixoloji funksiyalar irəliləyə, bəziləri isə geriləyə bilər. Məsələn, bəzi uşaqlar rəngləri çox böyük dəqiqliklə seçib, mürəkkəb naxışları qura bildikləri halda, özünəxidmət vərdişlərinin öhdəsindən gəlməkdə, böyüklərin göstəriş və tapşırıqlarını yerinə yetirməkdə böyük çətinlik çəkirlər. Autizmi olan uşaqların zəkasına gəldikdə onların bəziləri çox üstün riyazi bacarıqlara və əla hafizə kimi xüsusi qabiliyyətlərə sahib ola bilər.

### ***Autizmi olan şagirdlərlə bağlı müəllimə tövsiyələr***

1. Autizmi olan şagirdlər çox zaman üz ifadələrinin, hərəkət dilinin və səs tonunun yozumunda çətinlik çəkirlər. Şagirdə təlimatlar verərkən, rəyinizi ifadə edərkən mümkün qədər aydın və konkret danışın. Əmin olun ki, təlimatlar şagirdin ehtiyaclarına görə mərhələ-mərhələ, şifahi və vizual olaraq, fiziki dəstək verməklə, yönəldici sözlər söyləməklə verilir.

2. Yardım üçün peşəkarlara (həmçinin valideynlərə) müraciət edin ki, autizmi olan şagirdlərin qəribə davranışlarının mənalarını anlaya, bu yöndə olan problemlərin optimal həlli yollarını tapa biləsiniz.

3. Qaydaların və ardıcıllığın həyata keçirilməsində davamlılığı təmin edin. Biləndə ki, dərs cədvəlində hansısa bir dəyişiklik olacaq (məsələn, əraziyə səyahət, yaxud toplantı kimi əlavələr), şagirdə nəyin dəyişəcəyini, nəyin gözləniləcəyi və nə etməli olduğunu deməklə onu bu dəyişikliyə hazırlayın. Şagirdləri hər kiçik uğurlarına görə mükafatlandırın.

## Hiperaktivlik və diqqət əksikliyi sindromu

**Xarakterik əlamətləri:**

**1. Diqqətin defisiti**

- Asanlıqla yayınırlar.
- Tez-tez başa çatdırmadıqları bir işdən digərinə keçirlər.
- Verilən təlimatları yerinə yetirərkən çətinlik çəkirlər.

**2. Hiperaktivlik**

- Çox danışırlar.
- Belə uşaq üçün sakit oyunlar oynamaq çətindir.
- Stulda tez- tez dönürlər, hərlənirlər.

**3. İmpulsivlik**

- Başqa insanların sözünü kəsir və oyunlarda öz növbələrini gözləmirlər;
- Növbəylə danışmaq lazım olanda çətinlik çəkirlər. Məsələn, suallara cavab verildikdə.

Fiziki cəhətdən təhlükəli olan vəziyyətdən yayınmaqda çətinlik çəkirlər.

Hiperaktivliyi olan uşaqlar öz yerlərində çox fırlanırlar, əşyaları və paltarları dartışdırırlar, tez-tez yerlərindən qalxır və ətrafı dolanırlar, uzun müddət otura bilmirlər. Daha çox üzə çıxan patologiya aktivliyin yüksək göstəricisi ilə deyil, onun nəzarət altına alınma dərəcəsi ilə bağlıdır. Diqqət əksikliyi uşağın başqa işlərlə məşğul olması, oyunu sonacan oynaması, oxuması, şəkil çəkməsi, başqaları ilə münasibətinə görə qiymətləndirilir. Oyunda hiperaktivliyi olan uşaq fəallığına görə digər uşaqlardan fərqlənməyə bilər.

Hiperaktivliyi olan uşaqda daha çox nəzərə çarpan xüsusiyyət özünü sakit aparmaq lazım gəldikdə, məsələn, məktəbdə və yaxud da nahar masası arxasında sakit ola bilməməsidir. Hiperaktivlik özünü müxtəlif şəraitdə büruzə verir: məsələn, evdə, məktəbdə. Lakin həkimlə qısa müddətli konsultasiya zamanı hiperaktivlik sindromu aşkar edilməyə bilər, belə ki, uşaq tanış olmayan şəraitdən, həkimdən qorxa bilər və yaxud da özünə maraqlı bir məşğuliyyət tapa bilər.

Bu uşaqlar müalicə olunmazsa və ya müəyyən tədbirlər görülməzsə, fikri dərsdən yayınır, məktəbdə yaxşı oxumurlar. Ətrafındakılarla ünsiyyət qura bilmir və bunlar gələcəkdə təhsildə, işlərində, cəmiyyətdə problemlər meydana çıxarır. Belə uşaqların çoxunda həm də emosional və davranış pozğunluğu, prososiallıq (başqalarına könüllü olaraq yardım etmək həvəsi), yaşıdları ilə də müəyyən problemlər formalaşır.

Hiperaktivlik və diqqət əksikliyi sindromunun 3 forması var:

- yalnız diqqət əksikliyi
- yalnız hiperaktivlik
- kompleks sindrom (diqqət əksikliyi + hiperaktivlik).

| ***Hiperaktivliyi olan şagirdlərlə bağlı müəllimlərə tövsiyələr*** |
|---|
| 1. Diqqət əksikliyi və hiperaktivlik sindromu haqqında daha çox məlumat əldə edin.<br>2. Şagird üçün nələrin çətin olduğunu müəyyənləşdirin. Məsələn, diqqət əksikliyi və hiperaktivlik sindromu olan bir şagird tapşırığı həll etməyə başlayanda, bir başqası isə bitirəndə, növbəti tapşırığa başlayanda çətinlik çəkə bilər. Hər şagirdə fərdi qaydada yardım edilməlidir.<br>3. Qaydalar, cədvəllər və tapşırıqları divardan asın. Aydın qaydalar və rejimlər diqqət əksikliyi və hiperaktivlik sindromu olan hər bir şagirdə kömək edir.<br>4. Şagirdə tapşırıq cədvəlindən və gündəlikdən necə istifadə etməli olduğunu göstərin.<br>Şagirdin fiziki fəallığını lazımi istiqamətə yönəldə bilməsinə kömək edin (məsələn, şagirdin bəzi məsələləri ayaq üstə və yaxud yazı lövhəsində həll etməsinə imkan yaradın). Müntəzəm olaraq planlaşdırılmış fasilələr elan edin.<br>5. Əmin olun ki, təlimatlar mərhələ-mərhələ verilir və şagird təlimatlara əməl edir. Təlimatları həm şifahi, həm də yazılı şəkildə verin. Diqqət əksikliyi və hiperaktivlik sindromu olan bir çox şagird mərhələlərə ayrılan tapşırıqlardan da faydalana bilirlər. |

## Ortopedik pozuntu

Ortopedik pozuntu uşağın uğurlu yaşama və təhsil alma qabiliyyətinə mənfi təsir göstərən bir məhdudiyyətdir. Bu diaqnoz anadangəlmə (məsələn, uşaq iflici, sümük vərəmi), eləcə də başqa səbəblərdən (məsələn: beyin iflici, amputasiyalar, sınıqlar, yanıqlar) yaranan əlillik növüdür.

### Beyin iflici

Beyin iflici dedikdə əzələ və bədən orqanlarından istifadə etməyə nəzarət edən beyin hissələrinin zədələnməsi nəzərdə tutulur. Zədələnmə halları doğuşdan öncə, bəzən doğuş zamanı, yaxud da doğuşdan az sonra baş verir. Beyin iflici zəif, mülayim və kəskin dərəcələrdə ola bilir. Zəif dərəcəli beyin iflici olan uşaq davranışında hansısa müəyyən qüsurlara yol verir.

Mülayim dərəcəli beyin iflici olan uşaq isə gəzərkən axsayır. Beləsi ayaq üçün düzəldilmiş xüsusi dayağa, yaxud çəliyə ehtiyac duya bilər. Daha kəskin beyin iflici uşağın bütün fiziki qabiliyyətlərinə mənfi təsir göstərə bilər. Mülayim, yaxud kəskin dərəcəli beyin iflici olan uşaq əlil arabasından və başqa alətlərdən istifadə etməyə məcbur olur. Beyin iflici olan uşaqların bəzən öyrənməklə bağlı problemləri, eşitmə-görmə problemləri və yaxud əqli gerilik problemləri də olur. Beyinin məruz qaldığı zədələnmə nə qədər böyük ölçüdədirsə, çox zaman elə beyin iflici də o qədər kəskin olur. Hər halda bu da var ki, beyin iflici zaman ötdükcə daha da pisləşməyə doğru getmir və beyin iflici olan uşaqların çoxu gələcək həyatlarında normal yaşayırlar.

Beyin iflicinin **üç başlıca növü** mövcuddur:

- **Spazmatik beyin iflici.** Bu zaman əzələ gərilməsi həddindən artıq səviyyədə olur. Hərəkətlər, xüsusən ayaq, əl və bel hərəkətləri nəzarətsiz halda olur. Beyin iflicinin bu növündə olan uşaqlar yeriməyə çalışdıqca ayaqlarını içəriyə qatlayaraq hərəkət edirlər. Bu, beyin iflicinin ən çox yayılmış bir şəklidir.
- **Atetoid beyin iflici** (diskinetik beyin iflici da adlanır). Bu, bədənin bütün hərəkətlərinə mənfi təsir göstərə bilir. Beyin iflicinin bu forması tipik olaraq asta və nəzarət edilməyən bədən hərəkətləri, azacıq əzələ gərilməsi şəklində olur ki, bu zaman uşağın düz oturub düz gəzməsi çətin olur.
- **Qarışıq beyin iflici.** Bu, yuxarıda sadalanan əlamətlərin birləşmiş bir variantıdır. Qarışıq beyin iflici olan uşaqda əzələ gərilməsi həm yüksək, həm də aşağı səviyyədə olur. Bəzi əzələlər həddindən artıq gərilmiş olur, başqa əzələlər isə həddindən artıq boşalmış bir vəziyyətdə olur ki, bunlar yöndəmsiz və qeyri-iradi hərəkətlərin qarışığını meydana gətirir.

| ***Beyin iflici olan şagirdlərlə bağlı müəllimlərə tövsiyələr*** |
| --- |
| 1. Beyin iflici haqqında daha çox məlumat əldə edin.<br>2. Bu, aydın bir məsələ kimi görünə bilər, amma bəzən beyin iflici "görüntüsü" belə bir yanlış təsəvvür yarada bilər ki, beyin iflici olan uşaq başqaları kimi öyrənmək qabiliyyətindən məhrumdur. Diqqətinizi uşağın fərdi qabiliyyəti üzərində cəmləyib təlim ehtiyaclarını və bacarıqlarını öyrənməyə çalışın. |

**Nitq və dil məhdudiyyəti**

Nitq və dil məhdudiyyətləri ünsiyyət zamanı və şifahi nitq funksionallığı kimi sahələrdə aşkarlanan problemlərlə bağlıdır. Bu qüsurlar sadə səs dəyişmələrindən tutmuş nitq üçün zəruri olan dil anlamaq və nitqdən istifadə etmək bacarıqlarına qədər dəyişə bilər.

Uşağın ünsiyyət bacarığı o zaman ləngimiş sayılır ki, o, danışıq və dil anlamaq bacarıqlarını mənimsəməkdə yaşıdlarından nəzərə çarpacaq dərəcədə geri qalır. Bəzən elə hallara da rast gəlirsən ki, uşağın danışığı anlamaq qabiliyyəti onu ifadə etmək qabiliyyətindən xeyli artıq olur. Ancaq bu hər zaman baş verən hal deyil.

Nitq qüsurları səslərin ifadəsi ilə bağlı tələffüzdə yaranan problemlər deməkdir. Bunlara aid bir əlamət kimi nitq axını və ritmində yaranan fasiləni göstərmək olar. Kəkələmə qəbilindən olan bu qüsur disfluyens adlanır. Nitq qüsuru olan insanlar “z” və ya “r” kimi səslərdən istifadə edərkən problemləri ola bilər. Nitq qüsuru olan bir insanı dinləyənlər onun nə demək istədiyini anlamaqda çətinlik çəkə bilərlər.

Dil qüsuru isə sözlərin həm verbal, həm də qeyri-verbal konteksdə anlaşılmaması, yaxud istifadəsində yaranan bir pozuntu halını əks etdirir. Dil qüsurlarının bəzi əlamətləri sırasına sözlərin və mənalarının müvafiq olmayan tərzdə istifadəsi, fikirləri ifadə etmək qabiliyyətinin olmaması, qrammatik qaydalara əməl edilməməsi hallarını göstərmək olar. Bu əlamətlərin biri və yaxud hamısı dil öyrənməklə bağlı çətinlikləri olan, yaxud dil inkişafı ləng gedən uşaqlarda aşkarlana bilər. Belə uşaqlar sözü eşidə, görə bilsələr də, mənasını anlamaya bilərlər. Belələri başqaları ilə ünsiyyət zamanı nə demək istədiklərini anlatmaqda da çətinlik çəkə bilərlər.

Peşəkarlar müəllimlərə şagirdlərin iş təcrübələrinə aid hədəflərin müəyyənləşdirilməsində yardımçı olan elə strategiyalar təklif edə bilərlər ki, bunlar şagirdlərin məktəbdən iş həyatına və ahıllıq çağına keçid dövrləri üçün yetərincə səmərəli olsun.

Müvafiq texnologiya elə uşaqlara yardım edə bilər ki, onların ünsiyyətini çətinləşdirən fiziki vəziyyətləri özünü göstərsin. Elektron ünsiyyət sistemlərindən istifadə edilməsi

danışmayan adamlara və kəskin fiziki məhdudiyyətləri olan fərdlərə mübadilə edilən fikirlərin qəbulu və ötürülməsində iştirak etməyə imkan yaradır.

| ***Nitq və dil məhdudiyyəti olan şagirdlərlə bağlı tövsiyələr:*** |
|---|
| 1. Diqqətlə dinləməyi bacarın.<br>2. Paralel replikalardan istifadə edin. Uşağın atdığı hər bir addımın danışıq formasında təkrar edilməsi nitqin stimullaşdırılmasında yardımçı olur (məsələn: “Sən kitab açırsan”). Uşaqlara nitqin ekspressiv elementlərindən istifadə olunmasının səbəblərini izah edin (məsələn: informasiyanın, izahatın verilməsi, diqqətin cəlb edilməsi, etirazın ifadə olunması üçün istifadə olunur). |

## Mövzu 4. İNKLÜZİV SİNİFDƏ PEDAQOQ

"Üç məktəbdən qovulmuş bir şagirdi yeni məktəbə gətirirlər. Birinci dərsə girən müəllim onu görüb ürəyində deyir: "Belə uşaqlar hardan gəlir axı?" İkinci dərsə gələn müəllim yeni şagirdi görüb hirslə: "Elə bir sən çatışmırdın...", - dedi. Üçüncü müəllim isə sevinclə: "Ooo, yeni şagirdimiz var!", - deyib ona yaxınlaşdı. Əlini sıxdı, gözünün içinə baxdı, gülümsünüb dedi: "Salam. Mən səni gözləyirdim." (Şalva Amonaşvili)

### 1. İnklüziv sinif müəlliminin səriştələri

**İnklüziv sinifdə dərs deyəcək müəllimin inklüziv səriştələliliyi** aşağıdakıları əhatə edir:

– inklüziv təhsilin fəlsəfəsini anlamaq, SİM şagirdlərin şəxsi və yaş inkişafının qanunauyğunluqlarını, xüsusiyyətlərini bilmək;

– inklüziv təlimin təşkilinin optimal üsullarını seçmək, inklüziv sinifdə təlim prosesini layihələndirmək;

– pedaqoji ünsiyyətin bütün subyektləri arasında SİM uşaqlara münasibətdə dəyərlərə əsaslanmış müxtəlif üsulların tətbiqi;

– inklüziv təlimin əhatə dairəsində korreksiyaedici-inkişafetdirici mühitin yaradılması və resurslardan bütün uşaqların inkişafı üçün istifadə etmək;

– inklüziv təhsillə bağlı peşəkar özünütəkmilləşdirməsini təmin etmək.

Müəllimin səriştəliliyi onun xarakterində özünü göstərir.

**Müəllimin motivasiyaedici xarakterini** inklüziv təlim çərçivəsində pedaqoji fəaliyyətini reallaşdırmağa şəxsi maraqları formalaşdırır. Motivləri sosial, idraki, peşə, şəxsi inkişaf, özünütəsdiq, şəxsi mənfəət və s. ola bilər.

**Motivasiyaedici xarakter** ümumi dəyərlər, ehtiyaclar, inklüziv təhsilin adekvat məqsədləri və məsələləri, müəyyən pedaqoji fəaliyyətin yerinə yetirilməsi üçün özünü motivasiya etmək bacarıqları kimi müəyyənləşir. Bu səriştə üçün müəllimin şəxsi hədəfləri önəmlidir.

**Koqnitiv xarakterini** aşağıdakı bacarıqları formalaşdırır:

- İnklüziv təlimin nəzəri və praktik məsələləri üçün zəruri olan informasiyaları qəbul etmək, mənimsəmək, istifadə etçək bacarığı.

**Refleksiv xarakter** müəllimin inklüziv təlimə hazırlaşma və prosesin aparılması şərtləri daxilində refleksiya apara bilmək bacarığını əhatə edir.

**Funksionallıq xarakteri** inklüziv təlim şərtləri daxilində əsas peşə bacarıqlarını əhatə edir:

- **diaqnostik bacarıq** şagird kollektivinin, şəxsiyyətin, təlim-tərbiyəsinin inkişaf səviyyəsinin, pedaqoji prosesin ümumilikdə və ayrı-ayrı mərhələsində vəziyyətinin doğru diaqnozunu qoya bilmək qabiliyyətini ehtiva edir.
- **proqnozlaşdırma** bacarığı hər hansı bir pedaqoji fəaliyyətin nəticələrini proqnozlaşdıra bilmə qabiliyyətini ehtiva edir.
- **konstruktiv** bacarıq – pedaqoji fəaliyyəti adekvat məqsədlər (ümumi, fərdi) müəyyənləşdirmək və şagirdlərin müxtəlifliyini nəzərə alaraq pedaqoji fəaliyyətin savadlı planlaşdırılması qabiliyyəti deməkdir.
- **təşkilatçılıq** bacarığı – pedaqoji fəaliyyətin təşkili, fərdi yanaşmanın yaradıcı tətbiqi (məsələn, fərdi tədris planı üzrə təlim).
- **kommunikativ** bacarıq – pedaqoji prosesin subyektləri ilə konstruktiv münasibətlərin qurulması qabiliyyətidir.
- **texnoloji** bacarıqlar inklüziv təlimin metod və texnologiyalarının tətbiqi səriştəsidir.
- **korreksiya** bacarığı – aralıq və yekun diaqnostikanın nəticələrini nəzərə alaraq istənilən mərhələdə pedaqoji prosesin gedişini korreksiya edə bilmək qabiliyyətidir.
- **tədqiqatçılıq** bacarığı – pedaqoji təzahürləri öyrənmək, analiz etmək, təcrübi-eksperimental işin aparılması səriştəsidir.

### 2. İnklüziv təhsildə müəllimin vəzifələri

Müəllim sinifdə adaptiv təlim mühitinin (hər bir uşaq üçün tələbatı ödəyəcək) yaradılmasına; normal təhsil almağa mane ola biləcək fiziki və ya əqli çatışmazlıqlara (disleksiya, disqrafiya, deviant davranış və s.) fikir yönəltməyən şəraitin yaradılmasına; SİM

uşağın tipik dərs prosesinə qoşulması üçün rasional izah formalarından istifadə etməklə, fəal dərs prosesinə qoşulmasına şərait yaratmağa məsuldur.

İnklüziv sinifdə müəllimin vəzifələrini aşağıdakı kimi təsvir etmək olar:

| № | **İnklüziv sinifdə müəllimin vəzifələri:** |
|---|---|
| 1. | SİM şagirdləri cəmiyyətə **bərabərhüquqlu** şəxs kimi təqdim etmək; |
| 2. | İnklüziv təhsilə cəlb olunmuş şagirdin fərdi xüsusiyyətlərini bilmək; |
| 3. | İnklüziv təhsillə bağlı nəzəri və praktik biliklərə malik olmaq; |
| 4. | SİM şagirdlərin Fərdi tədris planının hazırlanmasında iştirak etmək; |
| 5. | Diferensial təlimi təşkil etmək; |
| 6. | SİM şagirdlərin daha çox maraq göstərdiyi fənlərlə əlaqəsini təmin etmək; |
| 7. | Müəssisədə təhsil alan hər bir şagirdin uğurları ilə bağlı müşahidələr aparmaq; |
| 8. | SİM şagirdlərin nəticələrinin diaqnostik, formativ və summativ qiymətləndirilməsini aparmaq; |
| 9. | Hər yarımilin sonunda məktəb rəhbərliyi qarşısında hesabat vermək; |
| 10. | İnklüziv təhsilə cəlb olunan şagird haqqında bütün məlumatların məxfiliyini qorumaq; |
| 11. | SİM şagirdin fərdi və qrup fəaliyyətlərinə cəlb olunmasına kömək etmək; |
| 12. | SİM uşaqların portfoliolarını hazırlamaq; |
| 13. | Məktəb psixoloqu ilə əməkdaşlıq etmək; |
| 14. | Valideynləri SİM şagirdin inkişaf dinamikası barədə müntəzəm məlumatlandırmaq. |

### 3. İnklüziv təlimdə müəllimin şəxsi keyfiyyətləri

İnklüziv siniflərin əsasını heç kəsin kənarlaşdırılmadığı və hər kəsin fərdi qabiliyyət və ehtiyacları ilə birgə qəbul edildiyi kollektivə olan münasibət təşkil edir. Qabiliyyət və ehtiyaclardan asılı olmayaraq, şagirdlərin hamısı eyni qaydada sinif kollektivinin üzvü sayılır. SİM uşaqların siniflərə ürəkaçıqlığı ilə qəbul edilməsi olduqca vacibdir. Müəllim şagirdlər üçün əsas davranış nümunəsidir. Məhz o, öz hərəkətləri ilə digər şagirdlərə SİM şagirdin, sinfin və cəmiyyətin vacib üzvlərindən biri olduğunu göstərməli, şagirdlər arasında pozitiv münasibətlərin yaranmasına çalışmalıdır.

Müəllim:

- *digər şagirdlərlə olduğu kimi, SİM şagirdlərlə də təhsil və davranışları ilə bağlı gözləntilərini bölüşməlidir;*
- *müxtəlif şagirdlərə müxtəlif tələblərin qoyduğunu və bunu nə üçün etdiyini şagirdlərə izah etməlidir;*
- *SİM şagird və ya onun ailə üzvlərindən xahiş etməlidir ki, problemin mahiyyətinin nədən ibarət olması haqqında danışsınlar;*
- *şagirdlərin hamısını sinif fəaliyyətinə cəlb etməyin bəzən çətin olduğunu nəzərə almalı, bunu şagirdlərə izah etməlidir ki, onlar imkan daxilində bu işdə müəllimə yardım etsinlər.*

SİM uşaqlar inklüziv siniflərə qəbul olarkən baş verə biləcək təhlükələrdən biri də mərhəmət, güzəşt atmosferinin yaranmasıdır. Bu uşaqların SİM uşaqlarla oxuması xeyriyyəçilik aktı deyil. Müəllim dərk etməlidir ki, SİM şagirdlər ona görə bu sinifdədirlər ki, onlar da bu cəmiyyətin bərabərhüquqlu üzvüdür və bu həqiqəti inklüziv təhsil auditoriyasına ötürməlidir.

***Yanlış münasibətlərin aradan qaldırılması üçün tövsiyələr**:*

- *güzəştli münasibətin SİM şagirdlər üçün təhlükəli olması ilə bağlı şagirdlərlə söhbət edin;*
- *düşünün, şagirdlər arasında fərq qoymadan onların hər birinin ehtiyaclarına hansı şəkildə cavab verə bilərsiniz;*
- *bütün şagirdləri, o cümlədən SİM şagirdləri bir-birilərinə yardım göstərməyə həvəsləndirin;*
- *şagirdlərə digərlərinə təmənnasız yardım göstərən insanlar haqqında danışın;*
- *şagirdlərə əməkdaşlıq etməyi öyrətmək üçün bütün imkanlardan istifadə edin;*
- *şagirdlərdə müxtəlif mövqeləri müzakirə etməklə münaqişələri yoluna qoya bilmə bacarığını inkişaf etdirin;*
- *şagirdlərə imkan verin ki, bütün sinfə aid olan vacib qərarları birgə qəbul etsinlər.*

Bu fəaliyyətlərin sayəsində şagirdlər sinifdəki mühit və münasibətlər üçün məsuliyyət daşıdıqlarını hiss edəcəklər.

## 4. SİM şagirdlərlə ünsiyyətdə psixoloji-pedaqoji prinsiplər

Xatırladırıq ki, yalnız özünü daim tərbiyə edən adam yaxşı tərbiyəçi ola bilər. Bu adi həqiqət daim özünütərbiyə ilə məşğul olmaqla mükəlləf olan pedaqoqu çətin və məsuliyyətli vəzifəsinin icrasında zəruri pedaqoji-psixoloji prinsiplərlə tanış etmək ehtiyacını doğurur.

1) **Prinsiplər xarakteri gücləndirir.** Müəllim öyrənənlərin qarşısında güclü xarakterli şəxsiyyət kimi çıxış etməlidir. İradəsiz, xaraktersiz tərbiyəçi öz davamçılarından güclü xarakterli, iradəli adamlar yetişdirə bilməz.

2) **Ardıcıllıq.** Qarşıya qoyulmuş məqsədi hər zaman izləmək, uşaqlarla başladılmış işi sona çatdırmağa çalışmaq, ardıcıllığı nümayiş etdirmək lazımdır.

3) **Zəiflik və səhvlərə gülməmək**. Uşaqlar bacarıqsızlıq göstərəndə səbirsizlik etmək, buna barmaqarası yanaşmaq olmaz.

4) **Sakitliyi və özünüidarəni qorumaq**. Həyatın hər anında sakitlik və özünüidarə vacibdir: uşaqların kəskin toqquşması, iş zamanı uşağın bıçaq, hətta balta ilə zədələnməsi, yaxınlıqdakı təhlükə: məsələn, haradasa yanğının baş verməsi, dənizdə və ya çayda qəfil

qasırğa, elektrik xətlərinin qəfil qırılması, uşağın məktəbdən qaçması, uşaqların təhlükəli oyunları, ekskursiya zamanı yolun itirilməsi, ürəkgetmə, uşaqlara və ya müəllimə qarşı güclü qəzəb və s.

5) **Təmkinli danışıq**. Əqli geriliyi olanlarla aydın, tələsmədən, səsi ucaltmadan danışmaq lazımdır. Yalnız həddini aşan uşağın yarada biləcəyi toqquşmanın qarşısını almaq məqsədilə səsin qəfil ucaldılmasına yol verilə bilər. Xatırlamaq zəruridir ki, səsin ucaldılmasından sui-istifadə uşaqları qıcıqlandırır, sakitləşdirmək əvəzinə, əsəbləşəni özündən çıxarır.

6) **Qətiyyətli davranış.** Yadda saxlayın ki, SİM uşaqların çox zaman təqlid etmə xüsusiyyəti olur və müəssisənin ümumi rejimi ilə yanaşı, müəllim öz davranışı ilə onları müalicə edir.

7) **Səlislik və tutarlılıq**. Şübhəli, əsaslandırıla bilinməyən fikirləri söyləməmək daha doğru olar. Qeydlər və tövsiyələr uşağa psixoterapevtik təsir göstərir, dayanıqsız və xəstə xarakteri tərbiyə edir.

8) **Daha az söz**! Heç bir uzun mülahizə və sözçülük olmaz. Yadda saxlamaq lazımdır ki, çox izah etmək – uşağın əvəzinə düşünmək, onların özünə düşünməyə imkan verməməkdir. Qısa, aydın, sadə dillə danışmalı!

9) **Zövqlü və ədəbli görünüş.** Əl-üzün təmizliyi, kostyumun təmizliyi və səliqəsi, daranmış saçlar, zərif aksessuarlar. Yadda saxlamalı ki, nümunə həm mənfi, həm də müsbət istiqamətdə ən yaxşı tərbiyəçidir.

10) **Qərəzə yol veməmək**. Uşaqlarla münasibətdə hər cür qərəzdən çəkinməli. Heç bir imtiyaz, heç bir xüsusi əzizləmələrə yol verilməməli. Müxtəlif münasibət göstərmək olar (fərdiləşdirmə). Amma heç bir qərəzli münasibət olmamalıdır. Uşaqlar bu mövzuda çox həssasdırlar.

11) **Konfidensiallıq.** Uşaqların qarşısında müəssisənin əleyhinə, müəssisənin qaydalarına əks fikirlər, pedaqoq-yoldaşların, digər köməkçi personallar da daxil olmaqla digər əməkdaşların davranışları əleyhinə heç bir fikir bildirilməməli. Bu barədə uşaqlar şikayətlə müraciət edərlərsə araşdırıb həqiqəti öyrənmədən heç bir fikir söylənməməli. Uşaqların qarşısında onların özləri və yoldaşlarının müsbət və mənfi xüsusiyyətləri, uşağın ailəsi və digər dəlillər haqqında heç nə söyləməməli. Bu məlumatlar uşaqların anladığı şəkildə təhrif oluna bilər.

12) **Qərar verməyə tələsməmək**. Müəllimlərin, texniki əməkdaşların və digərlərinin davranışları haqqında uşaqların sensasion söhbətlərinə inanmamalı. Normal uşaqların münasibətlərindəki qeyri-dəqiqliyi yada salıb fərqli şagirdlərin şişirtmələrini, psevdofanta-ziyasını və yüksək özünətəlqini nəzərdə saxlamalı.

## Mövzu 5. İNKLÜZİV SİNİFDƏ TƏLİM PROSESİNİN TƏŞKİLİ

### 1. İnklüziv sinfin təşkili

Sinifdə bütün şagirdlər eyni səviyyədə (yalnız sağlam, yalnız SİM, yalnız əlaçı, orta və ya zəif) olduqda tənqidi düşüncə, özünənəzarət və özünüqiymətləndirmə zəif inkişaf edir. Məhz bu baxımdan sinfin tərkibi (strukturu) müxtəlif səviyyədə olur, elə həyatda olduğu kimi. Sinifdə SİM olan uşaqlara sağlam uşaqların iştirakı lazım olduğu qədər, sağlam uşaqlara da SİM olan uşaqların iştirakı lazımdır. Bu cür siniflərdə təhsil alan uşaqlarda ciddi inkişaf geriliyini korreksiya etmək mümkündür. İnklüziv siniflərin təşkili zamanı şagirdlər dünyanın rəngarəng, insanların isə fərqli olması fikrinə alışırlar.

Məktəbdə sinif əsas struktur elementi sayılır. İlk kollektivlər sinifdə yaranır, müvafiq emosional abu-hava formalaşır.

İnklüziv sinfin təşkilinin vacib amillərindən biri müəllimin xüsusi bacarıqlara malik olması, valideynlərlə birgə əməkdaşlıq etməsi və məsləhətləşməsidir.

Sinfin təşkili zamanı müəllimin **vəzifələ**ri:

- Şagirdlər üçün sinifdə emosional təhlükəsiz mühitin yaradılması;
- Şagirdləri dərs prosesinə cəlb etmək məqsədi ilə müxtəlif metodlardan istifadə;
- Qarşılıqlı hörmət və anlaşmanın təmin edilməsi;
- İdman dəqiqələri;
- SİM olan şagirdlərin dərs prosesinə hazırlanması.

**2. İnklüziv sinifdə dərsin təşkili**

***Təlimin məqsədi:***

- Öyrədici – şagirdlərə bilikləri mənimsətmək, vərdiş və bacarıqları formalaşdırmaq;
- Tərbiyəedici – davranış modeli, kommunikativ bacarıqları formalaşdırmaq;
- İnkişafedici – SİM şagirdləri xüsusi pedaqoji-psixoloji üsullarla nailiyyətlərə yönəltmək.

***İnklüziv siniflərdə dərslərin planlaşdırılması və təşkili pedaqoji prinsiplərə əsaslanır:***

- **Pedaqoji optimizm prinsipi (bütün şagirdləri öyrənə biləcəyinə inandırmaq)** L.S.Vıqotskinin fərdi inkişaf proqramının başlanğıcı, gedişi və nəticəsini proqnozlaşdırmağa imkan verən “yaxın inkişaf zonası” ideyasına əsaslanır.
- **Diferensial və fərdi yanaşma prinsipi** şagirdin fərdi xüsusiyyətlərini nəzərə alır, inkişaf pozğunluğunun spesifik xüsusiyətlərini nəzərə alaraq münasib təlim şərtlərinin yaradılmasına hədəflənir.
- **Erkən pedaqoji yardım prinsipi** şagirdlərə uğurlu korreksiyaedici-pedaqoji yardımın əsas şərtlərindən biridir. Şagirdin fərdi təhsil ehtiyaclarını müəyyənləşdirmək üçün inkişafdakı ləngimələrin erkən təzahürlərini aşkarlamaq və diaqnostikasını aparmaqdır.
- **Təlimin sosial-adaptasiyaedici prinsipi** sosial bacarıqların və şagirdin ətraf sosial-mədəni mühitə psixoloji hazırlığının müxtəlif strukturlarını müəyyənləşdirməyə imkan verir.
- **Təfəkkür, dil və ünsiyyətin xüsusi təlim vasitəsi kimi inkişafı prinsipi.** SİM olan şagirdlərdə nitq, təfəkkür və ünsiyyətin inkişafında xüsusi problemlər var. SİM olan şagirdlər üçün ümumi təhsil ehtiyacı nitqin, təfəkkürün və ünsiyyətin inkişafına korreksiyaedici-pedaqoji köməyin göstərilməsidir.
- 

- **Xüsusi pedaqoji rəhbərliyin vacibliyi prinsipi.** SİM olan şagirdlərin öyrənmə-idraki fəaliyyəti müəllimlərin rəhbərliyini tələb edir.

Dərslər şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun planlaşdırılır. Dərsin əvvəlində problematik situasiya yaradılır. Dərsin uyğun hissələrində SİM olan uşaqlara yeni mövzu fərdi izah oluna bilər. Yük dərsin ortasına doğru tədricən artırılır. Növbəti mərhələdə şagirdlərin imkanlarına uyğun müxtəlif növ çalışmalar növbə ilə bir-birini əvəzləyir. Dərs elə qurulmalıdır ki, sinifdə öyrənmə, müzakirə, düşünmə və fəaliyyət üçün müvafiq qüvvə və zaman sərf edilmiş olsun. Dərs aydın alqoritmə malik olmalıdır. Müəyyən alqoritmə vərdiş edən şagirdlər daha intizamlı olur. Dərs bir-biri ilə metodik şəkildə bağlı olan üç hissəyə ayrılır.

1. **Giriş hissə** düşünməyə yönəltmə mərhələsi ilə başlayır. Bu mərhələnin əhəmiyyəti ondan ibarətdir ki, şagirdlər fəallaşır, hamı aktiv iştirak edir. Proqramda göstərilmiş mövzu əsasında dərs başlayır. Motivasiya illüstrasiyalar, şəkillər, sxemlər, rəmzlər əsasında təşkil olunur və tədqiqat sualının qoyuluşu ilə tamamlanır. SİM olan şagirdlərin qavrama və anlama xüsusiyyətləri nəzərə alınaraq tədqiqat sualının alternativ variantı hazırlanır.

2. **Əsas hissə** dərketmə mərhələsi ilə davam edir. Bu zaman şagirdlər yeni materialın mahiyyətini dərk etməyə yönəlirlər. Bu mərhələdə yeni biliklə əvvəlki bilik arasında əlaqə yaradılır. Müstəqil öyrənmə prosesi müəllimin izahı, şagirdlərin dərslik və ya mənbələrlə işi əsasında qurulur. Müxtəlif iş formalarından istifadə olunaraq konkret tapşırıqlar verilir. Təqdimatlardan sonra ümumi diskussiya aparılır. SİM olan uşaqlar üçün mahiyyətcə eyni, lakin sadələşdirilmiş tapşırıqlar verilir. SİM olan uşağın xüsusiyyətləri nəzərə alınaraq təqdimatları ümumi siniflə və ya fərdi dinlənilir.

SİM olan şagirdlərlə iş zamanı müxtəlif fəaliyyətlər bir-birini əvəzləyir. Müəllim öz nitqi ilə prosesi istiqamətləndirir, lakin nitqlə çatdırılan informasiya minimum həddə olur.

3. **Yekun hissə** - düşünmə mərhələsidir. Bu zaman şagirdlər rast gəldikləri fakt və hadisələri yada salır, suallar verir, müşahidə və fikir mübadiləsini aparır, həmin fikri daha geniş şəkildə mənimsəməyə çalışır. Biliklər yaddaşda möhkəmlənir. Bir və ya iki şagird tapşırığı sinif qarşısında təqdim edir. Sonra SİM olan şagirdlər yeni mövzu ilə bağlı fərdi tapşırıqlar yerinə yetirir, bu zaman müəllim digər şagirdlərin tapşırıqlarını yoxlayır.

**İnklüziv sinifdə dərsin gedişatı:**

- Yeni materialın mərhələli izahı;
- Tapşırıq təlimatının şagird tərəfindən təkrarlanması;
- Təlimin audio-vizual təminatı;

- Təlim nailiyyətinin qiymətləndirilməsinin xüsusi vasitələri.

**3. Təlim prosesində istifadə olunan metod və üsullar**

Müəllimin istifadə etdiyi metod və üsullar dərsin məqsədinin həyata keçirilməsi üçün bir vasitədir. Onları bacarıqla seçmək və istifadə etmək lazımdır. Metod və üsulları elə tətbiq etmək lazımdır ki, iş zamanı şagirdlərin fəaliyyət növləri dəyişsin. Mənimsəmə prosesində mümkün qədər çox analizatorun (eşitmə, görmə, lamisə), motorika, yaddaş, məntiqi təfəkkür və s. fəaliyyəti təmin olunsun. Əlbəttə, SİM olan uşaqlarla iş zamanı onların psixoloji xüsusiyyətləri də nəzərə alınmalıdır.

***Korreksiyaedici işin ümumi qaydaları:***

- hər bir şagirdə fərdi yanaşma;
- yorğunluğun qarşısını almaq üçün müxtəlif vasitələrdən istifadə (zehni və təcrübi fəaliyyəti növbələmək, materialı kiçik hissələrlə təqdim etmək, rəngarəng əyani vasitələrdən istifadə etmək);
- təlim bacarıqlarını formalaşdıran, yazılı və şifahi nitqi inkişaf etdirən və öyrənmə fəaliyyətini aktivləşdirən metodlardan istifadə.

Təlim prossesinin təşkili üçün aşağıdakı metodlardan istifadə etmək olar. Qeyd olunan metodlar müxtəlif iş formalarına (fərdi, cütlərlə, qrup şəklində və s.) uyğun aparılır.

**Vizual metodlar** inklüziv sinifdə dərsin başlanğıc mərhələsində istifadə edilir. Uşaqlar sinifdə ilk növbədə məktəb lövhəsini görürlər. O, səmərəli istifadə olunmalıdır, vizual dayağı təmin etməlidir. İnformasiyanın ətraflı təsviri düzgün verilməlidir. Tapşırıqlar, şəkillər, sxemlər, cədvəllər, predmetlərin və təcrübələrin nümayişləri və s. lövhədə təqdim olunur. Bu da materialın möhkəm mənimsənilməsinə imkan yaradır.

**Praktik metodlar**. Dərs praktik metodlar əsasında formalaşır. Praktik metodlar öyrənmə prosesində uşaqlarda planlaşdırılmış elementlərin öyrənilməsinə, bilik və bacarıqların formalaşmasına yardım edir. Praktik metodun vasitələri:

- tapşırıq (yazılı və şifahi);
- laboratoriya və praktik iş;
- sxem
- rəsmçəkmə, applikasiya, qurma.

**Şifahi metodlar**dan istifadə idrak fəaliyyətini aktivləşdirməyə, düşüncəni formalaşdırmağa və yaranmış çətinliyə tez reaksiya verməyə şərait yaradır. Şifahi metodun vasitələri:

- nağıletmə (şer, nağıl, hekayə);
- tamaşaların göstərilməsi.

**Layihə metodu** interaktiv metodlardan biridir. Öyrənmə prosesinin ayrılmaz bir hissəsidir. Layihə metodundan istifadə təcrübəsi göstərir ki, birlikdə öyrənmək yalnız asan və maraqlı deyil, həm də daha səmərəlidir.

Layihə metodu:

- şagirdlərin ünsiyyət və əməkdaşlıq qabiliyyətlərini formalaşdırır;
- tədqiqat aparmaq və materiallarla işləmək bacarıqlarını inkişaf etdirir;
- vaxtdan düzgün istifadəni öyrədir;
- şagirdlərdə özünəinamı artırır.

***Hansı üsullar SİM olan şagirdlərə daha səmərəli öyrənməyə kömək edir?***

- şagirdlər üçün informasiyanın ötürülməsi üsullarını tez-tez dəyişmək;
- tapşırığın yerinə yetirilmə formasını dəyişmək ( məs., yazmaq əvəzinə testləri şifahi yerinə yetirmək);
- tapşırığı hissə-hissə yerinə yetirmək;
- İKT-dən istifadə etmək.

Fərdi xüsusiyyətlər nəzərə alınmalı, tapşırıqlar üzərində iş stress, həyəcan və gərginlik yaranmadan aparılmalıdır. Öyrənilən mövzunun mürəkkəbliyindən asılı olaraq ev tapşırığının izahı bütün sinfə və ya fərdi verilir.

**Dərsin təşkili ilə bağlı müəllim üçün tövsiyələr**

- Oxu dərsində kitabı açmağa kömək etmək, materialın səhifəsini və oxunacaq mətni göstərmək lazımdır. Oxu zamanı uşağın diqqəti yayına bilər, bunu nəzərə alaraq müəyyən vaxt keçdikdən sonra bir daha uşağa yaxınlaşmaq, mətni izləməyə kömək etmək vacibdir.
- Sinifdə verilən tapşırıqların həcmini azaltmaq (suallar oxunmuş mətn əsasında verilirsə, SİM olan şagirdlərlə cəmi 2-3 sualı müzakirə etmək və ya mətnin yarısını oxumaq) lazımdır;
- Cavab verərkən SİM olan şagirdlərə artıq vaxt vermək (şagirdlərin reaksiyaları ləng ola bilər) zəruridir;
- Yazılı tapşırıqlar və testlərin həlli üçün daha çox vaxt tələb olunur, bu zaman müəllimin köməyinə ehtiyac var (dəftəri tapmaq, açmaq, qələmi tapmaq və s.).

**SİM olan şagirdlər üçün tapşırıqlar tərtib edərkən aşağıdakılar nəzərə alınır:**

- tapşırıq həm şifahi, həm də yazılı şəkildə tərtib olunur;

- tapşırıq konkret, qısa, bir feilli və bir neçə təlimatlı olur;
- tapşırığı verərkən şagirdin yanında dayanılır;
- başladığı işi bitirmək üçün şagirdə şərait yaradılır.

**SİM olan şagirdləri emosional və öyrənmə mühitinə korreksiyaedici təsir etmək üçün aşağıdakı üsullardan istifadə olunur:**

- oyun situasiyaları;
- əşyanın xüsusiyyətlərinin müəyyən olunması tələb edən didaktik oyunlar;
- digər şagirdlərlə ünsiyyəti inkişaf etdirən oyunlar;
- üz və əl əzələlərini sakitləşdirən gimnastikalar.

## Mövzu 6. TƏLİMİN DİFERENSİALLAŞDIRILMASI

### 1. Diferensial təlim

Fərqli qabiliyyət və maraqlara, eləcə də öyrənmə xüsusiyyətlərinə malik şagirdlərə eyni anlayış və bacarıqları dərs üçün ayrılmış məhdud vaxt çərçivəsində öyrətmək asan iş deyil.

Diferensiasiya bütün şagirdlərin ehtiyaclarını qarşılamaq üçün – şagirdlərin nə öyrəndiyinə (məzmun), informasiyanı necə mənimsədiklərinə (informasiyanın emalı), bilik və bacarıqlarını necə nümayiş etdirmələrinə (nəticə) və tədrisin harda və kiminlə baş tutmasına (təlim mühiti) dəyişiklik etməklə hazırlanmış öyrətmə metodudur. Diferensiasiya təlim reseptlərindən ibarət toplu deyil. Əslində bu, şagirdlərin sinifdə lazımi təlim təcrübəsi qazanması üçün öyrətmə və öyrənmə haqqında müəllimin düşünmək tərzidir.

Diferensial təlim anlayışı Amerika Birləşmiş Ştatlarının təhsil sistemində və təhsillə bağlı qanunvericiliyində əksini tapmış bir anlayışdır. 1975-ci ildən etibarən ABŞ təhsil qanunları bütün məktəbləri uşaqların fiziki, əqli, irqi, dini və s. fərqliliklərinə baxmayaraq fəal halda ümumtəhsil kurikulumu ilə əhatə olunmasını tələb etmişdir. 1990-cı və 1997-ci illərdə isə həmin qanunları daha da möhkəmləndirmək və icra olunması üçün "Əlilliyi olan fərdlərin Təhsili" adlı qanun qəbul edilmişdir və bu qanun məhz fiziki və əqli əlilliyi olan uşaqların ümumtəhsil kurikulumu ilə əhatə olunması üçün səmərəli şəraitin yaradılmasını tələb etmişdir.

**Differensial təlim çərçivəsində müəllim:**

a) inklüziv təhsilə cəlb olunmuş uşağın psixofizioloji fərdiliyini bilir;

b) qavrama kanallarına bələddir;

c) anlama səviyyələrini bilir;

d) təfəkkür növlərini bilir.

## 2. Fərdi tədris planı (FTP). FTP-nin strukturu

**İnklüziv təhsil prosesinə cəlb olunan şagirdlərlə FTP üzrə işləmə ardıcıllığı:**

| № | Görüləcək işlər | Tarix |
|---|---|---|
| 1. | Şagird məktəbə müraciət edir. | İyul-avqust |
| 2. | Şagird bütün sənədləri, epikriz sənədi və ya uşaq dispanserindən verilən arayış ilə birlikdə Psixoloji-Tibbi-Pedaqoji Komissiyaya müraciət edir. | “-------------------“ |
| 3. | Psixoloji-Tibbi-Pedaqoji Komissiyanın müsbət rəyi əsasında inklüziv komponentli məktəbə qəbul edilir. | “-------------------“ |
| 4. | İnklüziv komponentli sinif 18 tipik və 2 SİM uşaqla 20 şagirddən ibarət olaraq komplektləşdirilir. | “-------------------“ |
| 5. | İnklüziv komponentli sinifdə təhsil alan şagird sinif mühitində müşahidə olunur və mütəxəssislər, valideynlər və şagirdlə işləyən müəllimlər tərəfindən qiymətləndirilir. | 15 sentyabr-15 oktyabr |
| 6. | Tədris proqramına uyğun olaraq uşağın qiymətləndirilməsinin minimum həddi əsas götürülərək ona FTP tərtib olunur. | Sentyabr-oktyabr |
| 7. | Təhsil xidmətləri yerinə yetirilir, bura təlim və xüsusi xidmətlər daxildir. | Oktyabr-yanvar |
| 8. | Şagirdin nailiyyəti qiymətləndirilir, nailiyyətlər və geriləmələr barəsində valideyn və şagirdlə işləyən digər mütəxəssislər məlumatlandırılır. | Dekabr-yanvar |
| 9. | Şagirdin yarımillik qiymətləndirilməsinin nəticəsi olaraq FTP yenidən nəzərdən keçirilir, əlavə və dəyişikliklər edilir. | Yanvar |
| 10. | Təhsil xidmətləri yerinə yetirilir, bura təlim və xüsusi xidmətlər daxildir. | Yanvar-may |
| 11. | İlin sonunda qarşıya qoyulan məqsədlər əsasında şagirdin təlim proqramını necə mənimsəməsi və digər inkişaf sahələrinə | May |

| | | |
|---|---|---|
| | görə hansı uğurların və çətinliklərin olması üzrə ilin sonunda bir daha qiymətləndirmə aparılır. | |

Tədris ilinin əvvəlində təqribən bir ay müddətində aparılan qiymətləndirmə başa çatdıqdan sonra müəllim, valideyn və mütəxəssislərdən ibarət komandanın qarşısında duran əsas məsələ SİM uşaqların ehtiyaclarının müəyyənləşdirilməsi və onlar üçün fərdi tədris planlarının (FTP) işlənib hazırlanmasıdır.

**FTP –** SİM uşaqlarla iş zamanı istifadə olunan ən vacib alət olmaqla uşaq və ona təqdim ediləcək xidmətlər haqqında ətraflı informasiyanı əhatə edən formal sənəddir. FTP ilə bağlı əsas müddəalar aşağıdakılardır:

- *FTP-nin hazırlanması zamanı qərarlar qəbul edərkən ailə başlıca rol oynayır. Onlar komanda ilə birgə optimal qərarlar qəbul edirlər.*
- *FTP uşaqlarla iş zamanı müəllim, valideyn və mütəxəssislər üçün bələdçidir.*

Müxtəlif qrup şagirdlər üçün dərslərin planlaşdırılması elə aparılmalıdır ki, məqsəd və vəzifələr sinifdəki uşaqların qabiliyyətlərini əks etdirməklə, bütün şagirdlərin məşğələlərdə iştirakına imkan yaratsın.

Tədris proqramının məqsədlərini təhlil etməklə müxtəlif ehtiyacları olan uşaqlar üçün tapşırıqlar yazarkən müəllim aşağıdakıları yerinə yetirir:

- *Tapşırığı təhlil etmək.*
- *Uşaqların verilmiş tapşırığı yerinə yetirə bilmələri üçün hansı bacarığa malik olmalarını qeyd etmək .*
- *Yeni dərsə keçməmişdən əvvəl şagirdlərə bu bacarıqları təcrübədən keçirmək üçün imkan yaratmaq.*
- *FTP-də qoyulan məqsədlərin ümumi proqram məqsədlərindən fərqlənmədiyini müəyyənləşdirmək üçün uşaqların FTP-si ilə tanış olmaq.*

Müəllim proqramı uşağın xeyrinə dəyişə bilər.

**FTP-nin strukturu**

FTP aşağıdakı **komponentlər**dən ibarətdir:

- **Uşaq haqqında məlumat:** soyadı, adı, yaşı, ünvanı. Bu bölmədə komanda üzvlərinin siyahısı da verilir.
- **Uşağın hazırkı bilik və bacarıq səviyyəsi.** Bura uşağın diaqnostik qiymətləndirməsi zamanı toplanmış informasiyaya əsaslanan inkişaf səviyyəsi haqqında məlumat daxil edilir.

- **Məqsəd və vəzifələr.** Bura komanda üzvləri tərəfindən müəyyən edilmiş, əsas bacarıq və davranışların mənimsənilməsində uşağa kömək edəcək məqsəd və vəzifələr daxil edilir.

- **Xüsusi və əlavə xidmətlər.** Bu bölmədə uşağa göstəriləcək xüsusi xidmətlərin siyahısı verilir.
- **Sinif mühitinin uyğunlaşdırılması və işin təşkili.** Bu bölmədə SİM uşağın adi sinifdə təhsil almasına yardım edəcək uyğunlaşdırmalar və işin təşkilində edilən dəyişikliklər təsvir olunur.
- **Fəaliyyət müddəti.** Bura planın ümumi fəaliyyət müddəti və ayrı-ayrı xidmətlərin təqdim edilmə müddəti haqqında informasiya daxil edilir.
- **Uşağın uğurları haqqında informasiya.** Formativ qiymətləndirmə və uşağın uğurlarının monitorinqi FTP-nin ayrılmaz tərkib hissəsidir. İnformasiyanın əldə olunması üçün müşahidə, nəzarət kartları, uşaqların işləri, davranışın təsvir olunduğu qeydlər və s. üsullardan istifadə etmək olar.

**Fərdi tədris planı nümunəsi**

| Şagirdin adı | Planın tərtib edildiyi tarix |
|---|---|
| | |

| Şagird haqqında məlumat |
|---|
| Təvəllüd:_________________________ Yaş:___________<br>Cinsi:_______________<br>Məktəb:__________________________________________________________<br>Sinif:___________<br>Valideynlər:_________________________________________________________<br>Diaqnoz və əsas çətinlikləri (sensor və fiziki, sosial-emosional, koqnitiv):<br>______________________________________________________________________<br>______________________________________________________________________<br>______________________________________________________________________<br>______________________________________________________________________<br>______________________________________________________________________<br>______________________________________________________________________<br>______________________________________________________________________<br>______________________________________________________________________ |

| |
|---|
| Əlaqə telefonu<br>və ünvanı:______________________________________________<br>________________________________________________ |

| Fərdi tədris planı komandasının tərkibi | | | | |
|---|---|---|---|---|
| **Rolu** | **Adı** | **Təhsili** | **Telefon** | **İmza** |
| Müəllim | | | | |
| Valideyn/himayədar və s. | | | | |
| Məktəbin nümayəndəsi (direktor, tədris hissə müdiri) | | | | |
| Psixoloq | | | | |
| Loqoped | | | | |

## I. Uşağın hal-hazırkı inkişaf səviyyəsinin göstəriciləri

| **Aşağıda qeyd olunmuş sahələrdə şagirdin bacarıqlarını və məhdudiyyətlərini qeyd edin.** |
|---|
| a) Şagirdin fiziki inkişafı (böyük motorikası: sərbəst hərəkət, fəaliyyətlərə qoşulma, təlimatlara riayət etmə).<br><br>*Samir sərbəst hərəkət edir, əksər fəaliyyətlərdə iştirak edir, təlimatlara riayət edir.* |
| b) Şagirdin sosial və emosional inkişafı (məktəb mühitində adaptasiya, həmyaşıdları ilə ünsiyyət yaratmaq bacarığı, başqalarından asılı olub-olmaması, emosional vəziyyəti, özünə qulluq bacarığı və s.).<br><br>*Samir məktəb mühitinə çətin adaptasiya olunur. Ünsiyyətə girmək bacarığı aşağı səviyyədədir. Emosional vəziyyəti stabildir. Özünə qulluq bacarıqları var.* |

| |
|---|
| c) Əqli inkişaf səviyyəsi (riyaziyyat, oxu və yazı məşğələlərinə qoşulma, rəngləri fərqləndirmə, həndəsi fiqurları tanıma, kiçik motorikanın inkişafı və s. )<br><br>*Samir riyaziyyat məşğələlərinə qoşulmur. Həndəsi fiqurları seçmir. Kiçik motorikası zəif inkişaf edib. Sinir və əzələ gərginliyi müşahidə olunur. Qələmi tutmaqdan imtina edir. Diqqətini bir neçə elementin üzərində cəmləyə bilmir.* |

## II. Müəllimin fəaliyyəti

| | |
|---|---|
| **Məqsəd** | Samiri dərslərdə fəaliyyətə qoşmaqla sosiallaşdırmaq;<br>Riyazi-məntiqi təfəkkürünü inkişaf etdirmək. |
| **Fəaliyyət planı** | 1. Samiri birinci partada əyləşdirmək.<br>2. Lövhədə yazdıqlarımı ucadan oxumaq.<br>3. Diqqətini dərsin üzərində cəmləyə bilməsi üçün ona əlavə əyani vəsaitlər hazırlamaq.<br>4. Samirin sinir və əzələ gərginliyinin olduğunu valideynlərə bildirmək, peşəkar müayinəyə aparmağı tövsiyə etmək.<br>5. Samiri riyaziyyatı yaxşı dərk edən sinif yoldaşı ilə bir partada əyləşdirmək. Lazım olarsa, bu şagird materialı Samir üçün səsli oxuyacaq.<br>6. Fərqliliyə dözümlü yanaşma bacarıqlarını inkişaf etdirmək üçün şagirdlərlə sinifdaxili seminarlar təşkil etmək. |
| **Hədəf tarixləri** | 1.5 – 2 ay |
| **Qeydlər** | 20.10.2018-ci il tarixində Samiri nevropatoloq və psixoloq müayinə etdi. Ona problemi ilə əlaqədar müalicə təyin edildi.<br>25.10.2018-ci il tarixində məktəbin psixoloqu və loqopedi Samir ilə ilk məşğələ keçirdi. |
| **Nəticə** | 29.12.2018. Samir dərslərdə nisbətən aktivdir. Ona kömək edən sinif yoldaşı ilə rahat ünsiyyətə girir.<br>Riyazi-məntiqi təfəkkürü zəif olaraq qalır. |

**III. Xüsusi xidmətlər**

| Xüsusi xidmətlər | İşin məqsədi | Başlanma tarixi | Xidmətin göstərilmə müddəti | Nəticə |
|---|---|---|---|---|
| Psixoloq | Diqqətin korreksiyası | 25.10.2018 | 1.5 – 2 ay | 29.12.2018-ci il. Diqqətini eyni zamanda üç obyektə yönəldir. |
| Loqoped | Kiçik motorika əzələlərinin ərginliyinin azaldılması | 25.10.2018 | 2 ay | 29.12.2018-ci il. Kiçik motorika əzələlərinin gərginliyi azaldı. |
| Məktəbdən kənar xüsusi xidmət | Nevropatoloq müayinəsi | 20.10.2018l | | Müalicə müəyyən edildi. Valideyn dərmanları qeyri-müntəzəm verir. |

**Valideynlərin təklifləri, rəyi və gözləntiləri:**

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

**FTP-nin icrasına məsul şəxs:**

| Adı | Vəzifəsi | İmzası |
|---|---|---|
| | | |

### 3. Təlimdə akkomodasiya və modifikasiya

Müəllim tədris materialının uyğunluğunu təhlil etdikdən sonra seçdiyi təlim metodunun uyğun olub-olmadığını müəyyənləşdirməyə çalışmalıdır.

İstənilən metodların tətbiqi ilkin şərt kimi şagirdlərdə müəyyən bilik və bacarıqların olmasını nəzərdə tutur. Müəllimlər dərsdə istifadə etmək üçün seçdikləri metodların tətbiqi zamanı şagirdlərin hansı potensial çətinliklərlə üzləşə biləcəklərini müəyyən etməlidirlər.

İstifadə ediləcək təlim metodlarının təhlili zamanı müəllimlərin bu və ya digər metodunun uğur qazanmasının şərti kimi aşağıdakı bacarıqları nəzərdən keçirmələri zəruridir: əqli, sosial, müstəqil öyrənmə, fiziki.

Təlim metodlarının təhlili müxtəlif ehtiyacları olan uşaqlar üçün təlimin planlaşdırılmasında birinci mərhələdir. Növbəti mərhələ uşaqların müxtəlif ehtiyaclarına uyğun olan metodların istifadə olunmasından ibarətdir. Bu isə təlimdə uyğunlaşdırma (akkomodasiya) və dəyişikliklərin (modifikasiyaların) həyata keçirilməsini tələb edir.

**Təlimin akkomodasiyası –** akkomodasiya tədris materialının məzmununu və anlama baxımından mürəkkəbliyini dəyişmədən təlimin xarakterini dəyişir. Akkomodasiya termini SİM uşağın cəmiyyətə adaptasiyasına şərait yaradan mühit və ya təchizatın dəyişdirilməsini tərif etmək üçün istifadə olunur. SİM uşaqların nizamlı şəkildə təlim kursuna davam etmələrini təmin edir. Akkomodasiya öyrənməni fərdiləşdirən, materialı dəyişdirmədən öyrətməyə təşviq edən taktika və strategiyadır. Akkomodasiya materialı dəyişdirmədən SİM uşaqları öyrədə bilməkdir.

Akkomodasiya nümunələri bunlardır:

1. Eşitmə məhdudiyyəti olan uşaqlar üçün işarət dili tərcüməçiləri
2. Görmə məhdudiyyətli uşaqlar üçün elektron mətn danışma sistemləri
3. Kiçik motorika məhdudiyyətləri, görmə məhdudiyyətli və ya öyrənmə çətinliyi olan şagirdlər üçün uzun zamanın verilməsi
4. Görmə məhdudiyyətli uşaqlar üçün böyük hərfli kitablar və s.

**Təlimin modifikasiyası –** modifikasiya tədris materialının məzmunu və anlama baxımından mürəkkəbliyini dəyişməklə təlimin xarakterini dəyişir. Modifikasiya termini dəyişikliyi ifadə etmək üçün istifadə olunur. Müəllimin öyrətdiyi materialı başa düşməyən SİM uşaqlar üçün dəyişiklik edilir. Məsələn, tapşırıqların sayı azaldılır, material hissələrə bölünür və s. Belə ki, modifikasiya şagirdin öyrənməsi üçün materialları dəyişdirən taktika və strategiyadır. Məsələn, uşaqların yaxınlıqdakı çaya ekskursiyaya getmələri nəzərdə tutulub. Onlar burada müşahidə aparmalı, sinfə geri döndükdən sonra isə hesabat yazmalıdırlar. Ancaq təhlil apardıqdan sonra müəllim müəyyənləşdirir ki, şagirdlərin demək olar ki, yarısı çox ləng yazır (zəruri şərt – müstəqil öyrənmə bacarıqları) və onların təxminən dörddə biri kifayət dərəcədə müşahidə etmə bacarığı nümayiş etdirmir. Müəllim məşğələni modifikasiya etmək qərarına gəlir. Şagirdlərə seçim verilir: onlar qeydlər apara və ya şəkillər çəkə bilərlər. Müəllim özü müxtəlif elementlərin şəklini çəkə bilər. Uşaqlar sinfə qayıtdıqdan sonra ya qeydlərinə

əsaslanmaqla hesabat yaza, ya müəllimin çəkdiyi şəkillərdə nəyin təsvir olunduğu ilə bağlı öz qeydlərini yaza bilərlər.

Dəyişikliklər önəmlidir, ancaq materialın zənginliyini və şagirdin öyrənməsini təhlükəyə ata bilər. Modifikasiyanın mənfi tərəfləri:

1. Dəyişikliklərin şagirdlər arasında daha böyük boşluqlara səbəb ola bilməsi
2. Bir şagirdin daha az material öyrənməsi
3. Tapşırıq və testlərin azaldılması. Bu zaman şagirdlər sadəcə asan tapşırıqların öhdəsindən gələ bilir.

Təlimdə ümumi uyğunlaşdırma xüsusi qayğıya ehtiyacı olan uşaqların fəaliyyətlərdə uğurla iştirak etmələrinə əhəmiyyətli dərəcədə yardım göstərsə də, onlar üçün **fərdi akkomodasiya və modifikasiyalar** tələb oluna bilər. Müəllimlər təlim prossesinə tam cəlb olunmaları üçün uşaqlara bərabər imkanlar yaratmaq məqsədilə akkomodasiyaları həyata keçirirlər. Başqa sözlə, akkomodasiyalar uşaqlara təlim prosesində iştirak etmək imkanı verir, onlara hansısa bir üstünlük vermir.

Təlim prosesində akkomodasiyaları həyata keçirmək üçün bir çox üsullar var. Sinifdə aşağıdakı sahələr üzrə akkomodasiyaları həyata keçirmək olar:

- **Fiziki mühit:** bu sahə üzrə akkomodasiya sinif mühitində, qruplara bölünmədə, uşaqların yerləşdirilməsində uyğunlaşdırmanı nəzərdə tutur.
- **Təlim metodu:** bu sahə üzrə akkomodasiya müəllimin materialı necə təqdim etməsi, eləcə də uşaqların tapşırıqları yerinə yetirməsinə necə cəlb edilməsi nöqteyi-nəzərindən təlim metodunun uyğunlaşdırılmasını nəzərdə tutur və şagirdlərin təliminə yardım etmək məqsədi daşıyır.
- **Göstərişlər –** bu sahə üzrə akkomodasiya müəllimin qayda, metod və gündəlik məşğələləri təqdim etməsi üzrə uyğunlaşdırmanı nəzərdə tutur.
- **Materiallar –** bu sahə üzrə akkomodasiya tədris alətləri və materialların şagirdlərin fərdi ehtiyaclarına uyğunlaşdırılmasından ibarətdir. Materiallara kitablar, iş vərəqləri, manipulyativ əşyalar və s. daxil ola bilər.

Modifikasiyanın istənilən növünü uşağın ailəsi ilə müzakirə etmək zəruridir, çünki əksər hallarda modifikasiya uşağın bilməli və bacarmalı olduqlarını dəyişir.

İstənilən fəaliyyət növündə olduğu kimi, göstərilən hər iki strategiya «**planlaşdırma», «həyata keçirmə», «dəyərləndirmə»** mərhələlərindən keçməli və bütövlükdə təlim prosesinin səmərəliliyini artıran «yardımçı vasitələrdən» istifadə edilməlidir.

Aşağıdakı nümunə müəllimin təlim strategiyasını necə qurması və bir mərhələdən digərinə keçidin necə reallaşdırılması, eləcə də yardımçı vasitələrdən istifadə zamanı modifikasiyanı daha dəqiq izah edir:

> Leyla adi məktəbin I sinif şagirdidir. Onda nitq vərdişləri zəif inkişaf etdiyinə görə ünsiyyət çətinlikləri vardır. Onun söz ehtiyatını zənginləşdirmək və nitqini inkişaf etdirmək üçün müəllim xüsusi yanaşmadan istifadə edir. Belə ki, təlim prosesində müəllim özü üçün aydınlaşdırır ki, Leylaya yaxın məsafədə və onunla üzbəüz olduqda o, bu və ya digər sualla müəllimə müraciət edir. Müəllim bu məqamdan istifadə etməyi qərara alır (**planlaşdırma**).
>
> Cəlbedici kitab, yaxud hər hansı bir əşya (yardımçı vasitələr) otaqda elə yerləşdirilir ki, uşaq onu görsün, lakin əli çatmasın. Bu halda o, müəllimə müraciət etmə məcburiyyətində qalır. Müraciət etdikdə isə müəllim uşağa məhz hansı əşyanı istədiyi, həmin əşyanın hansı rəngdə olduğu, böyüklüyü, kiçikliyi və s. ilə bağlı suallar verir.
>
> Müəllim öz baxışları ilə uşağı həmin suallara cavab verməyə həvəsləndirməklə bərabər, onun tədricən daha mürəkkəb formada cavab verməsi üçün müəyyən vaxt verir. Müəllim gözlədiyi cavabı aldıqda isə, uşağı həvəsləndirmək məqsədi ilə tərifləyir, nəvaziş göstərir və qiymətləndirir (**həyata keçirmə**).
>
> Dərsdən sonra müəllim Leyla üçün tərtib olunan FTP-də hansı üsullardan istifadə olunduğu və dərs zamanı əldə etdiyi irəliləyişi barədə müvafiq qeydlər aparır (**dəyərləndirmə**).

## Mövzu 7. AİLƏ VƏ MÜTƏXƏSSİSLƏRİN BİRGƏ FƏALİYYƏTİNİN TƏŞKİLİ METODİKASI

> Valideynlərə mütəxəssislər lazımdır. Mütəxəssislərə valideynlər lazımdır. Uşaqlara hər ikisi lazımdır.

### 1. Sağlamlıq imkanları məhdud uşaq və ailə

Uşaq təlim-tərbiyəsi ilə bağlı təcrübə belə bir inama əsaslanır ki, ailə uşağın ilk müəllimidir. Uşağa ilk dərs deyən müəllimlər onun evdə əldə etdiyi biliklərə hörmətlə yanaşır və gələcək təhsilini onun maraqları üzərində qurur. Ailənin maraqları, prioriteti və qayğıları uşaqlar, xüsusən SİM uşaqlar üçün nəzərdə tutulan xüsusi proqramların məna və təcrübəsində mərkəzi yerləri tutur. Mütəxəssislərin ən vacib funksiyalarından biri ailələrdə öz güclərinə inam hissini yaratmaqdır.

Ailədə SİM uşağın varlığı bütövlükdə ailənin quruluşunda, ailə üzvlərinin rollarında dəyişikliklər edir, onların yaşayış tərzlərinə, duyğu və düşüncələrinə təsir edəcək stress mənbəyi yaradır. SİM uşağa sahib olan valideynlərin ilkin olaraq ümidləri boşa çıxır. Onları bu sual daim narahat edir: Niyə?

Xüsusilə analar ilk ayları narahatçılıq içində nə edəcəklərini bilmirlər. Daha sonra özlərini, həyat yoldaşlarını və ya tibb işçilərini günahlandırmağa başlayırlar. Mövcud vəziyyəti qəbul etmək aylar və ya illər apara bilər. Bir çox ailələr isə övladlarının məhdud imkanlı olmasını

qəbul edə bilmir, uşaqdan imtina, ondan utanma, nifrət etmə, məsxərəyə qoyma, etinasızlıq kimi reaksiyalar göstərirlər. Valideynlərin göstərdiyi bu ilkin reaksiyaları aşağıdakı şəkildə qruplaşdırmaq olar.

1. Şok: ağlama, çarəsizlik və ya heç bir reaksiya verə bilməmək.
2. Rədd etmə: qəbul etməmə.
3. Əzab çəkmə: depressiya. Bu vaxt ümidlər puça çıxır və əzab çəkmənin sonunda valideynlər depressiyaya düşə bilər, özlərinə qapanırlar.
4. Günahkarlıq duyğusu: Bu vaxt valideynlər özlərini müxtəlif ifadələrlə (Kaş ki siqaret çəkməsəydim; Kaş ki qidalanmama diqqət etsəydim və s.) günahlandırırlar.
5. Qərarsızlıq: Bu vaxt valideynlər tərəddüd içində olurlar.
6. Əsəb: Valideynləri “Niyə mən?” sualı daim narahat edir.
7. Utanma.
8. Ailə fərdləri arasında fərq qoyma.
9. Yaxınları və cəmiyyət tərəfindən qəbuledilməmə barədə narahatlıq.
10. Övladının gələcəyi barədə narahatlıq (Məndən sonra uşağın taleyi necə olacaq?).

Belə reaksiyalardan irəli gələrək uşaq özünəqapanmış bir ruh halında olur, inkişaf prosesində gərəkli mərhələləri natamam və ya düzgün olmayan yanaşma ilə keçdiyindən yaşıdlarından geri qalmağa başlayır. Belə geriləmə özünü bütün sferalarda (ünsiyyət, özünəxidmət, təhsil) göstərir.

Ailədə körpənin dünyaya gəlişi, onun böyüməsi, məktəbə getməsi bir çox yeniliklərə və dəyişikliklərə səbəb olur. Məhdud imkanlı uşağın dünyaya gəlişi isə ailədaxili münasibətlərdə, onların iş həyatında, yaxınlarından və cəmiyyətdən gözləntilərində tamamilə böyük dəyişikliklər yaradır. SİM uşağın vəziyyəti yalnız onun özünə təsir göstərmir. Zaman-zaman bu vəziyyət ailədaxili münasibətlərdə həyat yoldaşları arasında münaqişənin yaranmasına səbəb olur. Burada kənardan gələn təsirlərin də (nənələr, babalar, dostlar və s.) rolu böyükdür. Təbii ki, bu vəziyyət ailədən- ailəyə dəyişir, valideynlərin şəxsi xüsusiyyətlərindən, onların bir-birinə və ətrafdakıların onlara nə dərəcədə dəstək verməsindən asılı olur.

Ailələr adətən SİM uşağın probleminin tez bir zaman içərisində həll olmasını gözləyirlər. Bunun uzun zaman və böyük səbr tələb etdiyini görəndə ümidləri puç olan valideynlər övladlarını reabilitasiya mərkəzlərinə aparmaq istəmirlər. Bu səbəbdən maarif-ləndirmə və təbliğat işlərinin aparılması vacibdir.

SİM uşaqların ailədə təlim-tərbiyə işini düzgün qurmaq üçün valideynlərin sinif rəhbəri ilə, müəllimlərlə, psixoloq və defektoloqlarla birgə işi mühüm məsələlərdəndir. SİM uşağı olan valideynlər üçün təcrübəli və bu sahədə ixtisaslaşmış müəllimlər pedaqoji və psixoloji mövzularda mühazirələr, elmi-praktik konfranslar təşkil etməlidir. Bu işi sistemli həyata keçirmək üçün müəllim öz sinfində atipik uşaqların sağlamlıq vəziyyətini, psixologiyasını, ailə vəziyyətini dərindən öyrənməlidir.

Valideynlərlə qrup halında işlərlə yanaşı, həm də fərdi olaraq məqsədyönlü işlər aparılmalıdır. SİM uşaqların ailədə təlim-tərbiyə imkanları genişdir. Məktəb valideynlərinin psixologiyasında yaranan neqativ halların aradan qaldırılmasına dəstək olmalı və SİM uşaqların cəmiyyətdə özünə yer tutması sahəsində valideynlərin, ailənin imkanlarından səmərəli istifadə etməlidir.

Ailədə belə uşağa anasının, atasının, bacı və qardaşının, ailənin digər üzvlərinin münasibətlərini araşdırmaq lazımdır. SİM uşaqda özünəqapanma, digər uşaqlardan qaçmaq, onlara yovuşmamaq kimi psixikasında əsaslı dəyişikliklər əmələ gəlir. Uşağın ailənin üzvlərinə və özünə münasibəti də dəyişir. Nəticədə belə uşaqlarda əsəbilik, psixi pozğunluq halları yaranır.

Çox vaxt valideynlərin həddindən artıq məhəbbəti, nəvaziş və himayəçiliyi nəticəsində uşaqlarda özünəxidmət vərdişlərin formalaşması gecikir, onlar müstəqil yerimirlər, az hərəkətdə olurlar, təlimə və ətrafda baş verənlərə laqeyd qalırlar. Valideynlərin çoxu bilmir ki, 4-5 yaşından sonra müəyyən edilmiş inkişaf pozulması və bundan sonra təşkil edilmiş uyğun tərbiyə və təlim uşağa lazımi dərəcədə reabilitasiyanı və sosial adaptasiyanı təmin etmir.

Var gücləri ilə uşaqlarını çətinliklərdən qoruyan, məsuliyyətdən azad edən valideynlər yaddan çıxarırlar ki, uşaqlıq dövrü keçib gedəcək, uşaqlar müstəqil həyata qədəm qoyacaq, işləməli, sevməli, ailə qurmalı, uşaq böyütməli və istər-istəməz insanlarla ünsiyyətdə olmalıdırlar. Tərbiyənin və təlimin ilk mərhələsində belə uşaqlarda özünəxidmət vərdişlərini formalaşdırmaq çox vacibdir, çünki bu vərdişlər gələcək təlimin əsaslarından biridir. Çox vaxt valideynlər, hətta uşaq müəssisələrinin tərbiyəçiləri bu vərdişlərin (müstəqil yemək, geyinmək, soyunmaq və s.) formalaşdırılmasına fikir verməyərək, nəinki uşağın intellektual inkişafını ləngidir, həm də onun gələcəkdə reabilitasiyasına və sosial adaptasiyasına mane olur.

**Sağlamlığı məhdud olan uşaqların tərbiyəsində valideynlər aşağıdakıları nəzərə almalıdır:**

- ✓ Psixoloji cəhətdən elə şərait yaratmalıdır ki, uşaq xəstəliyini hiss etməsin.

- ✓ Övladının vəziyyətini nə qədər tez qəbul etsə, onun vəziyyəti bir o qədər yaxşı olacaqdır. Bu vəziyyət hamını nisbətən xoşbəxt edəcək və onun da inkişafına səbəb olacaqdır. Duyğularını ailə üzvlərilə, mütəxəssislərlə paylaşsın. Onları ifadə etməkdən çəkinməsin.
- ✓ Nikbin olsun.
- ✓ Övladının inkişafını daim nəzarətdə saxlasın.
- ✓ Övladının problemi haqqında daha ətraflı öyrənsin və bu mövzuda biliyini artırsın.
- ✓ Uşaqlarla mehriban və şəxsiyyət kimi rəftar etmək lazımdır.
- ✓ Hərdən valideynlər daim uşağa kömək edirlər, amma bu kömək tədricən azaldılmalıdır.
- ✓ Uşağın bacara biləcəyi fəaliyyətləri ailənin digər üzvləri yerinə yetirməməli, bu işdə onun özünə fürsət verilməlidir. Unutmasınlar ki, kömək hər bir işin onun əvəzinə yerinə yetirilməsi deyildir.
- ✓ Uşağın yerinə yetirə bildiyi hər tapşırığı müsbət qiymətləndirsin və rəğbətləndirsin. Fəaliyyət növlərini bir-biri ilə tez-tez əvəzləndirmək lazımdır, çünki SİM uşaq tez yorulur.
- ✓ Belə vəziyyətdə tək olmadığını unutmasın, onun vəziyyətində olan bir çox ailələr vardır. Başqa SİM uşağa sahib ailələrlə görüşsün, duyğu və düşüncələrini paylaşın. **Unutmasın, çətinliklərin öhdəsindən gəlməkdə ən vacib şəxs elə hər bir kəsin özüdür!**

- ✓ Özünə diqqət və vaxt ayırsın, fiziki və psixoloji sağlamlığını qorusun. Bu övladı üçün çox vacibdir.
- ✓ Digər övladına da mütləq vaxt ayırsın.
- ✓ Övladını ev mühiti ilə məhdudlaşdırmasın, onu gəzintiyə və digər valideynlərin övladlarının apardıqları yerlərə (parka, gəzintiyə, şənliklərə) aparsın.

### 2. Müəllimlərin və təhsil müəssisələrinin valideynlərə dəstək formaları

Müəllimlər hər il başqaları ilə əvəz oluna bilər, ailə üzvləri isə SİM uşağın həyatında dəyişməz simadır. Şübhə yoxdur ki, valideynlər uşaqların həyatında əsas rol oynayırlar. Onlar öz uşaqlarını hər kəsdən daha yaxşı tanıyırlar. Demək olar ki, onlar uşaqlarla bağlı məsələlərdə peşəkar rolunu yerinə yetirirlər. Müəllimlər isə uşaqların inkişafı və təhsili ilə bağlı məsələlərdə peşəkardırlar.

Müəllimlər və təhsil müəssisələri valideynlərə aşağıda göstərilən məsələlərdə dəstək ola bilər:

Sosial və emosional dəstək

İnformasiya mübadiləsi

Valideynlərin uşaqlarının təlimində iştirak etməyə və cəlb olunmasına həvəsləndirilməsi

Uşaq və valideynlər arasında qarşılıqlı münasibətlərin yaxşılaşdırılması

1. **Sosial və emosional sahələrdə valideynlərə dəstək.** Sosial və emosional yardım çərçivəsində müəllim və psixoloq valideynlərə müqəssirlik hissi, başqa valideynlərə bənzəməmək, eləcə də tənhalıq hissindən xilas olmaqda kömək edə bilər.

Sosial və emosional dəstəyə aiddir:

- hər bir valideynə komandanın hər hansı üzvü ilə əməkdaşlıq etmə hüququnun verilməsi;
- valideynlərə uşaqların davranışı, uğurları haqqında məlumat verməklə onları ruhlandırmaq;
- SİM uşağın valideyninin sağlam uşaqların valideynləri ilə birgə iclasda iştirak etməsi;
- SİM uşağın valideyninin müəllim və digər mütəxəssislərlə uşaqların inkişafı haqqında, problemləri haqqında daim ünsiyyətdə olmaları;
- uşaqların ev şəraiti, sosial büdcəsi ilə maraqlanmaq, lazım gələrsə, yerli icra orqanlarından müəyyən sosial köməyin xahiş edilməsi.

2. **İnformasiya mübadiləsi** çərçivəsində məktəb valideynlərə aşağıdakı məsələlər üzrə kömək edə bilər:

- valideynlərə öz uşaqları haqqında tam məlumat vermək;
- valideynləri bir-biri ilə tanış etmək;
- hər bir valideynin uşağı üçün işlənmiş proqramda fəal iştirakını təmin etmək;
- uşağın inkişafındakı dəyişikliklərlə bağlı valideynləri ilə tez-tez görüşlər keçirmək;
- psixoloqun hər bir uşaq haqqında rəyini valideynlərə çatdırmaq;
- ölkəmizdə, eləcə də digər ölkələrdə inklüziv təhsil sahəsində aparılan müsbət işlər haqqında valideynlərə mütəmadi olaraq məlumat vermək.

3. **Məktəb və müəllimlər valideynləri öz uşaqlarının təlimində iştirak etməyə həvəsləndirmək** üçün 1-ci və 2-ci bəndlərdə verilmiş tövsiyələrdən istifadə edərək, onları ibtidai inklüziv təlim proqramına və uşaqla məktəbdə həyata keçirilən işin davamı olaraq evdə iş prosesinə cəlb edə bilərlər.

4. **Uşaq və valideynlər arasında qarşılıqlı münasibətlərin yaxşılaşdırılması**. Bu məqsədlə ümumi tədbirlər keçirmək, valideynlər üçün psixoloji və pedaqoji dəstək xarakterli seminarlar təşkil etmək, şagirdlərə valideynləri ilə sosioloji sorğular keçirmək kimi layihə tipli tapşırıqlar vermək və s. ümumi atmosferi yaxşılaşdırmağa xidmət edən fəaliyyətlər tövsiyə edilir.

### 3. Valideynlərə səmərəli ünsiyyət

Müəllimlər valideynlərlə işi planlaşdırmalı və konkret məsələlərin həllinə yönəlməlidirlər.

**Konsultasiyalar.** Təhsil müəssisəsində konsultasiyalar triada – qarşılıqlı əlaqələrin üçbucaq konfiqurasiyası ilə xarakterizə edilir. Müəllim uşağın probleminin daha yaxşı həll edilməsində valideynə kömək edir. Uşağın evdə davranışının idarə olunmasında valideynlərə kömək isə uşağın davranışını və təhsil müəssisəsində onun müvəffəqiyyət dərəcəsinin yaxşılaşdıracaq. Bunu da qeyd etmək vacibdir ki, uşaqlarla bağlı planlar evdə valideynlərin səyləri ilə dəstəkləndiyi təqdirdə daha uğurla həyata keçirilir.

**Konsultasiya şərtləri**. Yaxşı məsləhətçi ola bilmək üçün müəllimlərdə uşaqlar, ailə, uşaq və ailənin problemləri haqqında ətraflı məlumat olmalıdır və ən əsası, o, ünsiyyət qurmağı bacarmalıdır.

**Empatiya.** Əgər müəllimlər qarşı tərəfin nəinki sözlərinə, eləcə də onların necə ifadə etdiklərinə, əlin əsəbi halda ovuşdurulması, sifətin qayğılı ifadəsi kimi qeyri-verbal təfərrüatlara qarşı diqqətli olsalar, başqasının nə hiss etdiyini daha yaxşı başa düşəcəklər. Müəllim özünü başqa adamın yerinə qoymağa və oxşar vəziyyətlərdə özünü necə hiss edəcəyini başa düşməyə cəhd göstərməlidir.

**Səmimiyyət.** Başqa insanlara göstərilən real qayğıdan qiymətli heç nə ola bilməz. Bunu əməkdaşlarınıza bəslədiyiniz simpatiya ilə qarışdırmaq olmaz. Çox problemləri və çətinlikləri olan və ya sevilməsi çətin olan adamlar bizim köməyimizə daha çox ehtiyacı olan adamlardır. Əsl peşəkarlar kiminlə işləmək lazım olduğunu seçməyə və bəzi hallarda az simpatiya bəslədikləri adamlarla da işləmək məcburiyyətində olduqlarını dərk edirlər.

**Dinləmək bacarığı**. Diqqətlə dinləmək bacarığı münasibətləri möhkəmləndirir. Valideynlərin çoxunda onları dinləməyi bacaran və onların informasiyasını əhəmiyyətli hesab edən peşəkarlarla ünsiyyət təcrübəsi az olur. Deyilənin təkrar edilməsinin köməyi ilə qulaq

asmanı, söhbətin nəticələrinin yekunlaşdırılmasını, eşidilənin izahatının soruşulmasını və valideynlərin dediklərinin dəqiqləşdirilməsini təcrübədən keçirməklə dinləmək bacarığı vərdişlərini inkişaf etdirmək olar. Danışıq zamanı danışanın gözlərinə baxmaqla göz təmasının saxlanılması vacibdir. Xoşagəlməyən adətlərdən, məsələn, stolu barmaqlarla əsəbi şəkildə döymək və ya söhbətin məğzinə aid olmayan iradlar göstərməkdən uzaq durmaq lazımdır. Bütün bunlar, valideynin müəllimə etimadını artırmağın asan üsullarıdır.

**Problemlərin həllində çeviklik.** İnsanların hamısı müxtəlifdir və bütün insanlara münasibətdə heç bir metod universal deyil. Müəllim müxtəlif problemlərin həlli üçün eyni üsuldan və ya metoddan istifadə etməməlidir. O başa düşməlidir ki, valideynlər müəllimə müraciət etməmişdən əvvəl problemi həll etməyə cəhd göstərmişlər. Odur ki, müəllimin problemi dərk etməkdə valideynə kömək etməsi, ailədə öz qüvvələri ilə həmin problemin həllinin nə üçün alınmadığını başa düşməsi və onun həllinin digər imkanlarının tapılmasında valideynə yardım etməsi vacibdir.

Valideynlə ünsiyyətdə müəllim aşağıdakıları diqqətdə saxlamalıdır:

1. Valideynlərə həmişə **dəqiq informasiya** verin. Xoşagəlməz xəbərləri onlara çatdırmağa tələsməyin. Həmin məlumatı onlara ümidverici bir şəkildə təqdim etməyi öyrənin.
2. Öz uşaqları ilə evdə yerinə yetirdikləri işə görə valideynlərə **minnətdarlığınızı bildirin.** Əgər valideynlərin bundan əvvəlki səyləri qiymətləndirilmiş olarsa onlar başladıqları işi davam etdirmək üçün özlərində ruh yüksəkliyi hiss edəcəklər.
3. SİM uşağın inkişafına müntəzəm olaraq **aydın və düzgün qiymət** verin. SİM uşaqların səhvlərinə deyil, vəziyyətin yaxşı tərəfə dəyişməsi üçün vasitələr axtarılmasına daha çox diqqət ayırmaq lazımdır. Bu məsələdə ən başlıcası vəziyyətin istər müəllim, istərsə də valideynlər tərəfindən laqeyd qarşılanmamasıdır.
4. Peşəkar **terminlərdən istifadə etməyin.** Müəllimlərə tanış olan sözlər bəzən valideynlərə naməlum ola bilər.
5. Hərdən valideynləri, övladları haqda **xoş xəbərləri bölüşmək üçün** dəvət edin. Bu, öz uşaqları haqqında, bir qayda olaraq ürək açmayan xəbərlər eşitməyə vərdiş edən valideynlərlə yaxşı münasibətlərin inkişaf etdirilməsinə kömək edəcək.
6. Valideynlərdən öz uşaqları ilə hansı **əlavə iş** apardıqlarını və ya onların uşaq barədə **yeni nə öyrəndiklərini soruşun** və uşağın Fərdi Tədris Planına **valideynlərin bəzi təkliflərinin yazılması**ndan çəkinməyin.
7. Görüş vaxtını valideynlərin orada sərbəst iştirak edə biləcəyi şəkildə planlaşdırın.

Bu məsləhətlər gərgin və ya qeyri-səmimi münasibətlərdən kənar olmanın zəruriliyini nəzərdə tutur. Həm müəllimlər, həm də valideynlər yadda saxlamalıdırlar ki, məktəblə ailənin doğru planlaşdırılmamış müzakirələrində uduzan uşaq olur.

## 4. Valideynlərlə görüş

Valideyn iclasları prosesin iştirakçılarına – ailə və təhsil müəssisəsinə bir-birini daha yaxşı tanımağa imkan verir.

Bütün tövsiyələr (şəfqət göstərilməsi, tolerantlıq, diqqətlə dinləmək qabiliyyəti, problemin həllinə çevik yanaşma və səmimiyyət) valideyn iclaslarının səmərəli keçirilməsi üçün həyati əhəmiyyət daşıyır. Həmçinin iclas yerinin düzgün seçilməsinin vacibliyini nəzərə almaq, iclası diqqətlə planlaşdırmaq və ona yaxşı hazırlaşmaq da zəruridir.

İclasın keçirildiyi yer və valideynlərlə görüşlər rahat olmalıdır və imkan daxilində artıq səs-küydən uzaq və ya iclasın dayandırılması hallarının gözlənilmədiyi bir məkan seçilməlidir. İclasda valideynlər məxfi informasiyanı müəllimlə bölüşə bilmək imkanına da malik olmalıdırlar.

Görüş öncədən planlaşdırılmalıdır:

- valideynlərə hansı informasiya və ya hansı dəlillər təqdim olunacaq və bunlar hansı şəkildə təqdim olunacaqdır;
- müəllim uşaq tərəfindən yerinə yetirilən tapşırıq nümunələrini, testlərin nəticələrini hazırlamalıdır. Həmin məlumat valideyn üçün nisbətən daha anlaşıqlı şəkildə təşkil olunaraq təqdim edilməlidir.
- müəllim uşaq barədə təqdim olunmuş informasiyanı izah etmək üçün həmişə aydın və sadə üsul seçməlidir.
- görüşdə kimin iştirak edəcəyi dəqiq planlaşdırılmalıdır. Bu, uşağa münasibətdə mühüm qərarlar qəbul ediləcəyi gözlənildiyi təqdirdə xüsusilə vacibdir. Uşağın həyatında olan bütün əsas adamlar (məsələn, hər iki valideyn, nənə və baba) iclasda iştirak etmək imkanına malik olmalıdırlar.
- iclasa digər peşəkarları (psixoloq, loqoped) və həmçinin məktəb rəhbərliyinin nümayəndələrini (metodist, həkim, direktor) də dəvət etmək olar.
- iclasdan öncə müəllimlər iclasın məqsədini özləri üçün müəyyən etməli və iclasın əvvəlində bu barədə valideynləri məlumatlandırmalıdırlar.

Valideyn iclasları yalnız hər hansı bir nəticəyə gəlib çıxmaq mümkün olduğu təqdirdə faydalıdır. Nəticə hətta əhəmiyyətsiz ola bilər, ancaq ən əsası budur ki, o, bütün iştirakçılarla razılaşdırılmış olsun. Nəticədə müştərək razılaşdırılmış plan onun yerinə yetirilməsinə nəzarəti asanlaşdırır.

İclasın son bir neçə dəqiqəsi yekunlaşdırmaya və planlaşdırılmış fəaliyyətin izah olunmasına (kim hansı hissə üçün məsuliyyət daşıyır, planın hansı hissəsi kim tərəfindən yerinə yetiriləcək və nəticə necə qiymətləndiriləcəkdir) həsr edilə bilər.

Müəllim valideyn iclası üçün valideynə kömək məqsədi ilə müəyyən materiallar (məsələn, faydalı kitablar və ya məqalələr) hazırlamalıdır. Səriştəli müəllim planın uğurla yerinə yetirilməsi üçün həmişə istənilən əlavə dəstək barədə xahiş edir. Bu zaman müəllim valideyn iclasını problemin həlli üçün ümumi ardıcıllıq sırasına atılmış yalnız ilk addım kimi nəzərdən keçirməlidir. Məktəb və ailə tərəfindən ən əhəmiyyətli problemin (uşaqda həmişə müxtəlif problemlər olur) seçildiyinə, tərtib olunmuş planın yerinə yetirildiyinə və seçilmiş strategiyanın uğurlu olduğuna əmin olmaq üçün valideynlərlə sonrakı görüşlər və ya əlaqələr vacibdir.

**Çoxsəviyyəli ünsiyyət.** İnsanlarla istənilən ünsiyyət bir çox səviyyələrdə – məzmun və emosiyalar səviyyəsində baş verir:

Sözlər məzmunu ifadə edir.

Səsin tonu və sifətin ifadəsi – bu iki amil ünsiyyətin emosional səviyyədə getdiyini ifadə edir.

Hər iki səviyyədə baş verən ünsiyyət daha səmərəli hesab olunur. Öz şəxsi ünsiyyət üslubunu formalaşdıran zaman müəllimin bu məqamları nəzərə alması vacibdir.

**Münaqişə.** Əgər münaqişələrə və onların qaçılmaz olduğuna diqqət yetirilməsə, o zaman uğurlu valideyn iclaslarının keçirilməsi üçün məsləhətlər natamam olacaq. Münaqişə iclas və görüşlərin hər hansı bir “qeyri-sağlam” aspekti deyildir. O, iştirakçılara bunlar arasında olan fərqləri daha yaxşı bilmək və başa düşmək imkanı verdiyindən müsbət rol da oynaya bilər.

Bəzi ailələr mütəxəssislərlə əməkdaşlıqlarından tamamilə razı qalsalar da, digərləri elə hesab edə bilərlər ki, onların fikirləri nəzərə alınmır. Bu da ailələr və mütəxəssislər arasında etibarın itirilməsinə gətirib çıxara bilər. Əgər ailələr mütəxəssislərə etibar etməsələr informasiyanı bölüşmək və vacib qərarların qəbul edilməsində iştirak etmək onlar üçün çətin olar. Valideynlər öz fikirlərinə hörmətlə yanaşılan komandanın fəal üzvü olduqda uşağın fərdi təlim proqramı keyfiyyətli olur.

Müxtəlif dəyərlər, məqsədlər, prioritetlər və yaxud məhdudiyyətlər - əməkdaşlığın inkişafına və səmərəli tərəf-müqabilliyinə təsir edən potensial maneələrdir. Valideynlər əksər hallarda uşağın indiki zamandakı problemləri ilə daha çox qayğılandıqları halda, müəllimlər SİM uşağın gələcək inkişafı haqqında fikirləşir və buna doğru istiqamətlənmiş uzunmüddətli məqsədlər qoyurlar. Valideynlərlə iş potensial maneələrin aradan qaldırılmasına, uşağın inkişafına və eləcə də valideyn və uşaq arasında olan münasibətlərin inkişafına kömək edə bilər.

Ailələrin bir-birindən əhəmiyyətli dərəcədə fərqlənməsinə baxmayaraq, onların hamısı SİM uşaqlarına xoşbəxt gələcək arzulayırlar. Onların arzuları digər valideynlərin arzularından çox da fərqlənmir. Onlar istəyirlər ki, övladları:

- özlərini uşaq birliyinin üzvü kimi hiss etsinlər, onların dostları olsun;
- sağlam uşaqlarla eyni imkanlara malik olsunlar;
- sağlam bacı və qardaşlarının və ya digər uşaqların təhsil aldıqları məktəbə getsinlər;
- sağlam uşaqlar onlar üçün model rolunu oynasınlar;
- təhlükəsiz mühitdə yaşasınlar;
- müstəqil olsunlar;
- həyatdan zövq alsınlar.

## 5. İnklüziv məktəblərdə psixoloqun rolu

İnklüziv təhsilə keçidin müvəffəqiyyətinə təsir göstərən amillərdən biri də həmin məktəblərdə psixoloji xidmətin yüksək səviyyədə təşkil olunması ilə bağlıdır. Ümumiyyətlə, bu işdə praktik psixoloq əsas simadır. İnklüziv təhsilli məktəblərdə psixoloqun rolunu bir az da dəqiqləşdirmək üçün xüsusi qayğıya ehtiyacı olan uşaqların belə təhsilin nəticəsi olaraq aşağıda qeyd edildiyi kimi keyfiyyətlərə yiyələnməsinin zəruriliyindən danışmalıdır. Burada məqsəd həmin uşaqların normal həyata inteqrasiya olunmasıdır. Bunun üçün aşağıdakılara ciddi fikir verilməlidir.

- intellektin inkişafı;
- emosional sahənin inkişafı;
- stresə qarşı dözümlülüyün inkişafı;
- özünə inamın inkişafı;
- gerçək aləmə pozitiv münasibətin və başqalarını qəbul etmənin inkişafı;
- müstəqilliyin inkişafı;
- özünümotivləşdirmənin inkişafı.

Bu işlərin məktəb təcrübəsində praktik şəkildə uğurla həyata keçirilməsi üçün psixoloqun işinin qurulmasında aşağıdakı aspektlərə xüsusi diqqətlə yanaşılması vacibdir.

- təlim prossesinin optimallaşmasına yardımçı olmaq, konkret şagirdin psixoloji xüsusiyyyətlərini nəzərə alaraq fərdi yanaşma vasitələrini seçmək.
- Şagird şəxsiyyətinin formalaşdırılmasının və psixi inkişafının xüsusiyyətlərini üzə çıxartmaq.

- Müəllim və şagirdlərin, uşaq və tərbiyəçilərin psixoloji-pedaqoji fəaliyyət ünsiyyətinin xüsusiyyətlrini öyrənmək;
- Uşaqların psixi inkişafında və davranışında olan qüsurların korreksiyası işini təşkil etmək;
- Uşaqların (şagird və tələbələrin) sosial-psixoloji və pedaqoji reabilitasiyasına yardım etmək
- Fövqaladə hallarda uşaqlara kömək etmək.
- Müəssisə rəhbərlərinə, müəllim və valideynlərə psixoloji məsləhət vermək.

Psixoloq bu işlərin öhdəsindən layiqincə gəlmək üçün elmin son nailiyyətlərindən xəbərdar olmalı, öz işində müasir elmi metodlardan istifadə etməlidir və bu işlərin yerinə yetirilməsi üçün o, optimal şəraitlə təmin olunmalıdır.

## Mövzu 8. İNKLÜZİV SİNİFLƏRDƏ QİYMƏTLƏNDİRMƏNİN APARILMASI

### 1. Təlim nəticələrinin yoxlanılması prinsipləri

İnklüziv sinifdə qiymətləndirmə fəaliyyətinin aparılmasının əsasında aşağıdakı prinsiplər durur:

**1. Qiymətləndirmə təbii şəkildə öyrənmə fəaliyyətinə inteqrasiya olunmuş daimi prosesdir.** Tədris mərhələlərindən asılı olaraq qiymətləndirmə diaqnostik, formativ və summativ olur. Yekun qiymətləndirmə təlim müddətində qiymətlərin ümumiləşdirilmiş nəticəsi kimi qeydə alınır.

**2. Qiymətləndirmə yalnız meyarlar əsasında aparılmalıdır.** Qiymətləndirmənin əsas meyarları müəyyənləşdirilmiş təlim nəticələridir (Fərdi tədris planının “Tədris proqramının mənimsənilməsi” bölməsində şagirdin fərdi öyrənmə imkanları çərçivəsində müəyyənləşir). Qiymətləndirmənin qayda və meyarları öncədən müəllim və şagirdin birgə hazırladıqları qiymətin verilməsi alqoritminə əsasən müəyyənləşir.

İnkişaf pozuntuları olan şagirdlərlə işləyərkən qiymətləndirmənin ümumi meyarlarını daha xırda, lokal meyarlara ayırmaq lazımdır.

***Məsələn, Azərbaycan dili fənni üzrə yazılı tapşırığı yerinə yetirərkən sözün müxtəlif orfoqramlarının düzgün yazılışı, lüğət tərkibinin doğruluğu, işin estetik tərtibatı da qiymətləndirilə bilər. Hər bir konkret vəziyyətdə müəllim şagirdin tapşırığının hansı meyarlar əsasında aparılacağı haqqında məlumat verir, həmçinin bu barədə valideynləri xəbərdar edir.***

***Aparıcı meyarlar şagirdə verilən tapşırığın formasına təsir göstərir. Mümkündür ki, müəllim düzgün yazı bacarığını yoxlamaq üçün şagirdə çap mətni üzərində buraxılmış hərfləri bərpa etməyi, sözdən doğru istifadə bacarığını yoxlamaq üçün isə cümlə yazmağı təklif etsin.***

**3. Qiymət vasitəsilə şagirdin şəxsi keyfiyyətləri deyil, yalnız fəaliyyət nəticələri yoxlanılır.** Yalnız öyrənilənləri yoxlamaq olar.

**4. Qiymətləndirmə sistemi elə formalaşdırılır ki, şagirdlər özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə vərdişlərinə yiyələnərək yoxlama-qiymətləndirmə fəaliyyətinə qoşulsunlar.**

**Şagirdin inkişaf xüsusiyyətlərini nəzərə alaraq təşkil edilən təlim prosesində və təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllim mütləq şagirdin fərdi imkanlarına uyğun metod və üsulları tətbiq etməlidir.**

Təcrübə göstərir ki, müəllimlər hər zaman şagirdin göstərdiyi cəhdləri nəzərə ala bilmirlər. Onların fəaliyyətini qiymətləndirməyi bacarmayaraq ya həddindən artıq tərifləyirlər, ya da nəticəni dəyərləndirə bilmirlər. Bu zaman şagird hansı meyarlara əsasən qiymətləndirildiyini anlamır, öz nəticələrinə tənqidi yanaşa bilmir. Müəllimin belə yanaşması SİM şagirdin sinif yoldaşlarında da anlaşılmazlıq yaradır. Onlar soruşmağa başlayırlar: *Nə üçün həmin şagird fərqləndirildi? Tam yerinə yetirilməmiş tapşırığın belə yüksək qiymətləndirilməsinin səbəbi nədir?*

Buna görə də müəllimin inkişaf pozuntuları olan şagirdlərə kömək məqsədi ilə valideynlərlə, psixopedaqoji müşahidələr aparan mütəxəssilərlə birgə işləməyi vacibdir. Defektoloq, psixoloq, valideyn uşağa dərsdə daha bacarıqlı olmağa yardım göstərə bilər.

*Məsələn:*

- Bütün şagirdlərin hələ yalnız indi öyrənəcəyi materialla SİM şagirdi öncədən tanış etməklə;
- Bütün şagirdərin istifadə edə biləcəkləri əyani materialları birgə hazırlamaqla;
- Təlim fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi ilə şagirdi tanış etməklə;
- Öz işini bütün şagirdlərlə bərabər qiymətləndirmə üzərində öncədən “məşq” etməklə.

Hazırda hələ də SİM şagirdlərin təlim fəaliyyətinin nəticələrinin dövlət təlim standartlarına əsasən planlaşdırılmış ümumtəhsil nəticələri ilə üst-üstə düşməməsi məsələsi sual olaraq qalır. Bu məsələ normativ sənədlər hazırlandıqdan sonra daha aydın olacaqdır.

### 6. Qiymətləndirmə

Verilmiş tapşırıqlar əsasında SİM şagirdin qiymətləndirilməsi aşağıdakı ardıcıllıqla həyata keçirilə bilər.

Şagirdə hər hansı tapşırığı həll etməyi təklif etməzdən öncə **"qorxunu götürmək"** lazımdır: özünəinamsızılığı, tərəddüdü, və ətrafdakıların qiymətləndirməsindən qorxunu aradan qaldırmağa kömək edilməlidir.

Aşağıdakı ***ifadələrdən*** istifadə edilə bilər:

*"Biz hər şeyi təcrübədən keçirirk, axtarışdayıq. Yalnız beləliklə nəyəsə nail olmaq mümkündür."; "Yalnız" heç nə etməyənlər yanılmazlar, buna görə də...";*

*"Yoxlama işində elə tapşırıq yoxdur ki, sən öhdəsindən gələ bilməyəsən.";*

*"Bu materialı biz səninlə tamamilə öyrənmişik.",;*

*"Belə tapşırıqları az etməmişik...".*

"Qorxunu götürmək" əməliyyatından **sonra** pedaqoji fəaliyyət **"avanslaşdırma"** əməliyyatı ilə davam etdirilir: şagirdin keyfiyyətlərinin nəzərə alınması; yaddaş, diqqət, reaksiyanın sürəti, mühakimə qabiliyyəti və s.. Müəllim şagirdin qarşıya qoyulmuş məsələnin öhdəsindən gələcəyinə qəti əminliyini mütləq nümayiş etdirməlidir.

Bu **ifadələr**dən istifadə edə bilər:

*"Sənin bacarıqların imkan verir ki, ...";*

*"Sən mütləq bacaracaqsan, çünki...".*

Şagirdin aktivliyinin stimullaşdırılmasında **"motivin göstərilməsi"** əməliyyatı – məqsəddən motivə keçmək böyük əhəmiyyət daşıyır (nəyin və kimin xatirinə fəaliyyətin aparıldığı izah olunur). **Motivin göstərilməsi formulu** belə görünür:

*"Bizə bu, çox vacibdir, ...";*

*"Bütün işimizin uğuru səndən asılıdır, ...";*

*"Sənin köməyin olmadan yoldaşlarına mümkün deyil ki, ...".*

Pedaqoji fəaliyyətin sosial istiqaməti şagirdin qüvvəsinin görüləcək işdəki vacibliyini vurğulamaqla davam etdirilməlidir. Bunun üçün **"fərdi istisnalıq"** əməliyyatından istifadə etmək təklif edilir: şagirdin ünvanına yönəldilmiş fərdi istisnalıq tapşırılan işin məsuliyyətini dərk etməyi və özünətələbkarlığı artırır, şagirdi uğurlu nəticəyə hədəfləndirir.

**Uyğun ifadələr**:

*"Yalnız sən bacarardın...";*

*"Belə bir xahişlə səndən başqa heç kimə müraciət edə bilməzdim...";*

*"Sən mənim qoçağımsan, sənə güvənirəm!".*

Əməliyyatın texnoloji alqoritmi konkret fəaliyyətlərin yerinə yetirilməsini təmin edən **"pedaqoji təlqin"**lə tamamlanır.

**Paradiqmalar:**

*"Başla, görək ki, ...";*

*"Səbirsizliklə görmək istəyirəm ki, ...";*

*"Görmək üçün çox həyacanlıyam...".*

Bu ifadələrdə önəmli rolu **səsin tonu** (sakit, həzin, əmin olmalıdır), **plastika və mimika** oynayır.

**Yekun qiymət** şagirdin öz nailiyyətini hiss etməsi üçün böyük əhəmiyyət kəsb edir. Məzmunca o, bütövlükdə nəticəyə aid olmamalı (baxmayaraq ki, belə qiymətləndirmə də olur), şagirdin nəticəsinə emosional reaksiya verməklə ayrı-ayrı detallara aid edilir:

*"Sənin işində mənim ən çox xoşuma gəldi, ...";*

*"Xüsusilə ... nail olmusan.".*

| ***Mərhələ*** | ***Alqoritm*** | ***Məqsəd*** | ***Paradiqma*** |
|---|---|---|---|
| ***1*** | **Qorxunu götürmək** | Şagirddə özünəinamsızılığı, tərəddüdü və ətrafdakıların qiymətləndirməsindən qorxunu aradan qaldırmaq | "Biz hər şeyi təcrübədən keçirirk, axtarışdayıq.. Yalnız beləliklə nəyəsə nail olmaq mümkündür.", "Yalnız heç nə etməyənlər yanılmazlar, buna görə də...", "Yoxlama işində elə tapşırıq yoxdur ki, sən öhdəsindən gələ bilməyəsən.", "Bu materialı biz səninlə tamamilə öyrənmişik.", "Belə tapşırıqları az etməmişik..." |

| | | | |
|---|---|---|---|
| *2* | **Avanslaşdırma** | Şagirdin keyfiyyətlərinin nəzərə alınması: yaddaş, diqqət, reaksiyanın sürəti, mühakimə qabiliyyəti və s. | “Sənin bacarıqların imkan verir ki, ...”, “Sən mütləq bacaracaqsan, çünki...” |
| *3* | **Motivin göstərilməsi** | Məqsəddən motivə keçmək: fəaliyyətin nəyin və kimin xatirinə aparılmasının izahı | “Sənin bacarıqların imkan verir ki, ...”, “Sən mütləq bacaracaqsan, çünki...” |
| *4* | **Fərdi istisnalıq** | Tapşırılan işin məsuliyyətini dərk etdirmək, özünətələbkarlığı artırmaq, şagirdi uğurlu nəticəyə hədəfləndirmək | “Bizə bu, çox vacibdir,...”, “Bütün işimizin uğuru səndən asılıdır, ...”, “Sənin köməyin olmadan yoldaşların üçün mümkün deyil ki,...” |
| *5* | **Pedaqoji təlqin** | Konkret fəaliyyətlərin yerinə yetirilməsini təmin etmək | “Başla, görək ki ...”, “Səbirsizliklə görmək istəyirəm ki, ...”, “Görmək üçün çox həyəcanlıyam...”. |
| *6* | **Yekun qiymət** | Şagirdin öz nailiyyətini hiss etməsi üçün | “Sənin işində mənim ən çox xoşuma gəldi,...”, “Xüsusilə ... nail olmusan”. |

## 2. SİM şagirdi qiymətləndirmək üçün nümunə

SİM şagirdlərin qiymətləndirilməsində uşağın imkanlarını, fiziki və psixoloji sağlamlığını, emosional davamlılığını nəzərə alan üsullardan istifadə edilməlidir. Bununla da təlimdə diferensial və fərdi yanaşmalar təmin ediləcəkdir.

Tapşırığın çətinlik səviyyəsi müəllim tərəfindən müəyyənləşdirilməklə yanaşı, şagirdlərin öz qüvvələrinə uyğun müstəqil, fərdi seçiminə də şərait yaratmaq olar. Belə vəziyyətdə diferensiasiya müəllim tərəfindən deyil, şagirdin tapşırığın çətinlik səviyyəsinə görə müstəqil seçimi sayəsində təmin ediləcək. Belə diferensiasiyanı sual-cavabla reallaşdırmaqla yanaşı, biliklərin təkrar olunmasında və möhkəmləndirilməsində də etmək olar.

İnklüziv sinifdə **nəticələrin yoxlanılması üsulların**dan biri **özünü qiymətləndirmə**dir.

Sinifdə **2 stend asılır:** biri tapşırıqlardan ibarət, digəri cavablardan. Tapşırıqlar xüsusi stenddə yerləşdiriilir, ciblərə paylanır. Birinci sıra ən asanlarıdır. İkinci – bir az mürəkkəb, üçüncü – daha mürəkkəb. Ən mürəkkəbi – dördüncü sıradır. Bu prinsip əsasında istənilən fənn üzrə tapşırıqlar hazırlamaq olar.

**Birinci sıra**nın ciblərinə tapşırıqlar qoyulur. Adətən bu, **hər hansı terminin izahı** olur. Həmin termini adlandırmaq lazımdır. Bu tapşırığa verilən cavab biliyə əsaslanır.

**İkinci sıra**nın tapşırığı materialın qavranılmasına hesablanır. Məsələn, **hər hansı bir epizodun izahı**nı vermək olar.

**Üçüncü sıra**da müxtəlif **təzahürlər arasındakı oxşarlığı müəyyənləşdirmək**dən ibarət olan tapşırıq qoyulur.

**Dördüncü sıra problem** xarakterli tapşırığı təqdim edir.

Birinci və ikinci sıra tapşırıqlarının **yaddaş**a, üçüncü və dördüncü sıradakıların **təfəkkür**ə, **mühakimə etmə** bacarığına, **uyğunluq və fərqlərin müəyyənləşdirilməsi** bacarığına əsaslandığını müəyyənləşdirmək çətin deyil.

Hər bir tapşrıq balla qiymətlənirilir. **Aşağı sıralar**ın hər bir tapşırığı **1 bal**la, **ikinci**dəkilər – **2 bal**la, **üçüncü**dəkilər – **3 bal**la, **dördüncüdəkilər – 4 bal**la hesablanır.

Şagirdlər hər hansı bala uyğun cavabı seçməkdə müstəqildirlər. Adətən hamı 5 bala uyğun cavab vermək istəyir. Demək, tapşırığı da 5 bala uyğun seçmək lazımdır. Tapşırıqları istənilən sıradan və istənilən kombinasiyada seçmək olar. Məsələn, birinci sıradan 5 tapşırıq seçmək olar və yaxud bir tapşırıq dördüncü sıradan, birini isə birinci sıradan seçmək olar ki, bu da nəticədə 5 bal verəcəkdir. Kombinasiya şagirdin imkanları çərçivəsində müxtəlif seçimlər vasitəsilə aparıla bilər.

Şagird tapşırığı həll edə bilmirsə, onu aşağıdakı sıralardan daha asan tapşırıqla dəyişə bilər. Bu tapşırıqlar balına görə dəyişdirilən tapşırığın balını ödəyəcək qədər seçilməlidir.

Cavabların doğruluğu eyni qayda ilə lövhədə yerləşdirilmiş cavablar əsasında yoxlanılır. Əgər cavab doğrudursa, şagird tapşırığı həll etdiyi vərəqdə uyğun balı yazır, əgər deyilsə, daha asan tapşırıqla əvəz edir.

**Fərdi yanaşma açıq-aşkar "gözün içinə" deyil, şagirdin hiss etməyəcəyi təbii şəkildə olmalıdır.**

**SİM şagirdin qiymətləndirilməsinə verilən tələblər:**

- Nailiyyət və sərf edilmiş qüvvəni nəzərə alan fərdi meyarlardan istifadə etməli;
- Gündəlik qiymətləndirmə aparılmalı;
- Testlərə cavab verə bilməyən şagirdlərin sərbəst işlərini qiymətləndirməli;
- Müsbət qiymətləndirməyə hədəflənməli;
- Həll edə bilmədiyi tapşırığın üzərində dəyişikliklər etməli;
- Dəyişdirilmiş tapşırıq əsasında qiymətləndirmə aparmalı.